www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 oktyabr 2016-cı il Cümə № 221 (6542) Qiymətі 60 qəpik

**Xəbər**

## Əsgərimiz şəhid oldu

yazısı səh.11-də

**Gündəm**

### İlqar Məmmədov tezliklə azadlığa buraxıla bilər



REAL sədrinin gözlənilən məhkəməsinin zamanı məlum olub; Avropa Məhkəməsi də onun işi üzrə kommunikasiya mərhələsinə başlayıb

yazısı səh.6-da

### Deputatdan ilginc açıqlamalar: "İlham Əliyev 1-ci Pyotr kimi..."

yazısı səh.10-da

### Metronun bitməyən gedişhaqqı müəmması-50 qəpik iddiası

yazısı səh.14-də

### Müstəqillik Günü tarixinin dəyişdirilməsi təklifinə reaksiya

yazısı səh.4-də

### Şeyxlə Dini Komitə arasında növbəti gərginlik

yazısı səh.10-da

### Şok statistika: əhalinin 8 faizi talassemiya daşıyıcısıdır

yazısı səh.14-də

### Nobel həftəsi - "O əjdahadan bizdə niyə yoxdur..."

yazısı səh.13-də

*İqbal Ağazadə:*

### "Mütləq növbədənkənar seçkilər olmalıdır"

yazısı səh.4-də

### Cüdo üzrə əcnəbi baş məşqçimiz zorlamada ittiham olunur

yazısı səh.12-də

### Gürcüstan üçün kritik iki gün - dünyanın diqqəti bu ölkədə

yazısı səh.9-da

### Qafqazda silahlanma yarışı böyük fəlakətlər vəd edir

yazısı səh.7-də

# Sülh prosesi yenidən dalana dirəndi

# "...AZƏRBAYCAN ERMƏNİSTANI YER ÜZÜNDƏN SİLƏCƏK!.." - İŞĞALÇIYA MÜHARİBƏ XƏBƏRDARLIĞI

Aprel döyüşləri zamanı düşmənin "İsgəndər" raket kompleksindən istifadə etməməsinin əsas səbəbi üzə çıxır; **rusiyalı analitik:** "Moskva ermənilərə böyük bir zınqırovlu oyuncaq bağışlayıb, qoy oynatsınlar..."



yazısı səh.8-də

## Cahangir Hacıyev uzunmüddətli həbsə girir-özünü Eldar Mahmudova qurban verir...

Beynəlxalq Bankın sabiq sədrinin maliyyə nazirini və digər məmurları hədəfə almasının pərdəarxası məqamları

yazısı səh.6-da



*Oqtay Haqverdiyev:*

### "50 milyon "semiçka" puludur"

yazısı səh.13-də





### SOCAR-ın baş məsləhətçisi "Yeni Müsavat"a danışdı

yazısı səh.5-də



*Elçin Şıxlı:*

### "Axırda həmişə qalib özüm oluram..."

yazısı səh.3-də



## İlham Əliyev "Qızılgül bağı" parkında

**Prezident İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva Bakının Nəsimi rayonunda yeni salınan "Qızılgül bağı" parkında yaradılan şəraitlə tanış oldular.**

Məlumata görə, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlət başçısına və xanımına yeni salınan parkda görülən işlər barədə məlumat verdi.

Yeni park "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin uzun müddət istifadə olumayan Radio Mərkəzinin 1906-cı ildə inşa edilən binasının ərazisində salınıb. Ümumi sahəsi 6300 kvadratmetr olan istirahət parkı dünyanın məşhur şirkətinin dizaynı əsasında layihələndirilib.

## Mehriban Əliyeva məktəb açılışında

**Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyeva oktyabrın 6-da Abşeron rayonunun Masazır kəndində Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunan 4 nömrəli tam orta məktəbin açılışında iştirak ediblər.**

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanı və Fondun vitse-prezidenti Leyla Əliyevanı şagirdlər qarşılayıblar.

Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova yeni inşa olunan məktəb barədə məlumat verib. Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunan məktəb binasının tikintisinə 2015-ci ilin oktyabrında başlanılıb. Müasir səviyyədə və yüksək keyfiyyətlə inşa olunan təhsil ocağının həyətində geniş abadlıq işləri görülüb, yaşıllıqlar salınıb, işıqlandırma sistemi quraşdırılıb.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və Leyla Əliyeva məktəbin rəmzi açılışını bildirən lenti kəsiblər.

Masazır kənd 4 nömrəli tam orta məktəbində müxtəlif fənn kabinetləri, o cümlədən hərbi, biologiya, fizika, informatika kabinetləri, kimya laboratoriyası və kitabxana fəaliyyət göstərəcək.

Qeyd edək ki, Heydər Əliyev Fondu təhsil sahəsində "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" layihələrini həyata keçirir. Bu layihələrin məqsədi ölkə miqyasında müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaq, dövlətin təhsil siyasətinin həyata keçirilməsinə dəstək göstərməkdir. Son 11 ildə bu layihələr çərçivəsində ölkənin müxtəlif bölgələrində 420-dək məktəb binası inşa olunub və yenidən qurulub.




## "Bank Standard" müflis elan edildi

**Maliyyə Bazarlarına Nəzarət Palatasının lisenziyasını ləğv etdiyi "Bank Standard" QSC müflis elan edilib. Bu barədə Azərbaycan Əmanətlərin Sığortalanması Fondundan (ADİF) məlumat verilib.**

Məlumata görə, bununla bağlı qərarı oktyabrın 4-də 1 Saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi qəbul edib. Qərara əsasən, ADİF Bankın ləğvedicisi kimi fəaliyyətə başlayıb.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Müxalifətçi partiya sədri İsrail səfirliyində

**Vətəndaş və İnkişaf Partiyasının (VİP) sədri Əli Əliyev İsrailin Bakıdakı səfirliyini ziyarət edərək, bu ölkənin sabiq prezidenti Şimon Peresin vəfatı ilə əlaqədar başsağlığı verib və Xatirə Kitabına nüfuzlu siyasətçi haqqında öz qeydlərini yazıb.**

Bu barədə "Yeni Müsavat"a VİP mətbuat xidmətindən məlumat verilib. Məlumatda deyilir ki, Əli Əliyev İsrail dövlətinin sabiq prezidenti Ş.Peresi dünya miqyasında qəbul olunan siyasətçi kimi dəyərləndirərək, Yaxın Şərq böhranının aradan qaldırılmasına verdiyi töhfəni, İsrail və Fələstinə yönəlik "İki millət, iki dövlət" prinsipinin mütərəqqi əhəmiyyətini, o cümlədən Azərbaycan-İsrail münasibətlərinin genişlənməsindəki xidmətlərini xüsusi qeyd edib.



Əli Əliyev

Ə.Əliyev daha sonra İsrail səfirliyinin əməkdaşları ilə Ş.Peres şəxsiyyəti və Azərbaycan-İsrail münasibətlərinin mövcud durumu ilə bağlı fikir mübadiləsi aparıb.

Qeyd edək ki, Şimon Peresin vəfatı ilə əlaqədar İsrail Səfirliyinə partiya sədrlərinin böyük əksəriyyəti getməyib.

❑ E.SEYİDAĞA

## İmişlidə atanın qızını zəncirləməsi faktı ilə bağlı cinayət işi başlanıb

**İmişl rayonunda atanın qızını zəncirləyərək evdə saxlaması faktı ilə bağlı cinayət işi başlanıb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, İmişli rayon Polis Şöbəsi və rayon Prokurorluğunun əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu hadisə yerində olub, hadisə yeri müayinə olunub və müvafiq ekspertizalar təyin edilib. Hadisədə adı hallanan Cavadxanlı kənd sakini Valeh Məmmədovun və digər kənd sakinlərinin izahatları alınıb.

Faktla bağlı İmişli rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 145.1-ci (qanunsuz azadlıqdan məhrum etmə) maddəsi ilə cinayət işi başlanıb, zəruri istintaq hərəkətləri davam etdirilir.

Qeyd edək ki, faktla bağlı "Xəzər" televiziyasında yayımlanan "Bizə danış" proqramında məlumat verilib. Proqramda İmişli rayonunun Cavadxanlı kənd sakini Valeh Məmmədovun qızlarını 8 il tövlədə zəncirləyərək saxlaması barədə süjet yayımlanıb. Bildirilib ki, qızlardan biri soyuqdan vəfat edib, digərinin isə ayaqları tutulub.

## Ölmək üçün özünü dənizə atdı

**Fövqəladə Hallar Nazirliyindən verilən məlumata görə, Dövlət Sularda Xilasetmə Xidmətinə daxil olmuş məlumata əsasən, Sumqayıt şəhərində 1 nəfər intihar məqsədi ilə özünü dənizə atıb. Həmin şəxs Fövqəladə Hallar Nazirliyinin dalğıc-xilasedicilərı tərəfindən xilas edilib və aidiyyəti üzrə təhvil verilib.**

## Binəli Yıldırım sərt danışdı

**İraq və Türkiyə arasında yaranan Başika qalmaqalına Türkiyə baş naziri Binəli Yıldırım sərt reaksiya göstərib. "Qafqazinfo" Türkiyə KİV-ə istinadən xəbər verir ki, baş nazir türk əsgərlərinin Başika ərazisində qalacağını deyib. Sərt çıxış edən B.Yıldırım "Bölgədəki İŞİD qüvvələri ilə mübarizə aparmaq üçün türk hərbçilər orada qalacaq. İraqın həddi deyil ki, Türkiyə haqqında artıq-əskik danışsın",- deyib.**

Xatırladaq ki, ötən gün İraq Milli Məclisi Mosula bağlı Başika bölgəsindəki Türkiyə əsgərini işğalçı qüvvələr adlandıraraq onların İraq ərazilərindən çıxarılması üçün lazımi addım atmağı qərara almışdı.

## Yunan-Roma güləşində parter qaydası ləğv olundu

**Yunan-Roma güləşi üzrə bütün yaş qrupları üzrə yarışlarda parter qaydası ləğv edilib. Dünya Güləş Birliyi yeniyetmə və gənclər arasında yarışlarda ləğv olunmuş qaydanı böyüklərə də şamil edib.**

Artıq passiv güləşməyə görə parter tətbiqi qaydası ləğv edilib. Əvəzində həmin güləşçiyə ilk dəfə şifahi xəbərdarlıq ediləcək və bu, protokolda əksini tapacaq. Eyni güləşçi yenə də passivlik nümayiş etdirərsə, ona rəsmi xəbərdarlıq ediləcək. Güləşçiyə üçüncü dəfə passivliyə görə xəbərdarlıq edilsə, ikinci rəsmi xəbərdarlıq alacaq və rəqibin hesabına 1 xal əlavə ediləcək. Bundan sonra baş verəcək hər ikinci xəbərdarlıq rəqibə 1 texniki xalın verilməsi ilə nəticələnəcək.

Passivliyə görə edilən xəbərdarlıq səbəbindən və rəqibə xal verildiyi üçün görüş dayandırılmayacaq.

## PKK Azərbaycan şirkətinin ofisində partlayış törətmək istəyirmiş

**PKK terror təşkilatının SOCAR-ın Türkiyədəki müəssisəsində partlayış törətmək planının olduğu üzə çıxıb. Türkiyənin "Star" qəzetinin verdiyi məlumata görə, belə bir planın olduğu İzmir polisinin həyata keçirdiyi əməliyyat zamanı yaxalanan terrorçunun ifadəsi zamanı ortaya çıxıb.**

İzmir Polis İdarəsi ötən bazar günü İzmir şəhərində partlayış törətmək istəyən 3 terrorçunu yaxalayıb. Terrorçulardan biri bazar günü yerli vaxtla saat 22.00 radələrində 3 kq partlayıcı ilə yaxalanıb, digər iki terrorçu qaçıb. Polisin həyata keçirdiyi əməliyyat nəticəsində terrorçulardan 23 yaşlı Mehmet D. bir gün sonra Bayraklıda qardaşının evində, Ahmet D. isə Qarabağlarda yaxalanıb.

Universitet tələbəsi olan Mehmet D. Şimali İraqda təlim keçdiyini, bir həftə əvvəl qaçaq yolla Türkiyəyə, İzmirə gəldiyini, şəhərdə hakim Ədalət və İnkişaf Partiyasının qərargahı və ticarət mərkəzləri yaxınlığında kəşfiyyat apardığını bildirib. Mehmet D. deyib ki, PKK partlayışlar törətmək üçün polisin diqqətini çəkməyən universitet tələbələrini xüsusi olaraq seçib: "Mən kəşfiyyat üçün İzmir Əliağadakı "Petkim" müəssisəsinə də gedəcəkdim, uzaq olduğu üçün gedə bilmədim. Partlayış törədəcəyimiz yerlər arasında polis və hərbçilərlə yanaşı, Türkiyə iqtisadiyyatında önəmli rol oynayan müəssisələrə də hücum əmri verilib. PKK strategiyasını dəyişib, Türkiyədə polis və əsgərlərlə bərabər, bundan sonra Türkiyə iqtisadiyyatı üçün önəmli müəssisələrə də hücum edilməsi, beləliklə, Türkiyə iqtisadiyyatına zərbə vurulması əmrini verib".

**Qeyd edək ki, "Petkim Petrokimya Holding A. Ş."nin səhmlərinin 58%-i "SOCAR Enerji Türkiye A.Ş."yə məxsusdur.**

## Polad Bülbüloğlu terrorçuluğa qarşı mübarizədən danışdı

**"Bakı və Moskva terrorçuluğa qarşı mübarizə sahəsində birgə səylərin koordinasiyası üzrə gündəlik iş aparır".**

APA-nın məlumatına görə, bu sözləri "RİA Novosti"yə açıqlamasında Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu deyib. O bildirib ki, bu proses çox aktiv şəkildə gedir: "İki ölkənin daxili işlər nazirlikləri və xüsusi xidmət orqanları arasında çox yaxşı əməkdaşlıq mövcuddur. Bu yaxınlarda Bakıda MDB ölkələri xüsusi xidmət orqanları rəhbərlərinin iclası keçirilib. Yaxın Şərqdə və Avropada baş verən hadisələr, iqtisadi böhran ən mənfi və gözlənilməz nəticəni verə bilər. Hər bir ölkə ayrılıqda terrorizmlə mübarizənin öhdəsindən gələ bilməz. Üstəlik, terror MDB sərhədinə yaxınlaşıb. Bu baxımdan qarşılıqlı əməkdaşlıq Azərbaycanla Rusiya və Azərbaycanla Qazaxıstan arasında mövcuddur".

## Onlar yenə gəlirlər...

**Minsk Qrupu həmsədrləri bu ayın sonu regiona səfər edəcəklər. Bu barədə APA-ya açıqlamasında Minsk qrupunun amerikalı həmsədri Ceyms Uorlik deyib. O səfərin dəqiq tarixinin hələlik məlum olmadığını deyib. Amerikalı həmsədr səfər zamanı ölkə prezidentləri ilə görüşəcəklərinə ümid etdiklərini bildirib.**

C.Uorlik həmçinin Fransanın növbəti sammiti keçirməklə bağlı təklifini alqışladığını bildirib: "Fransa, Rusiya və ABŞ ATƏT-in Minsk qrupu həmsədr ölkələri olaraq davamlı sülhə gətirib çıxara biləcək vasitəçilik səylərini davam etdirmək üçün birlikdə sıx işləyirlər".

Diplomat Ermənistanda gələn il keçiriləcək parlament seçkiləri öncəsi danışıqlarda fasilə yarana biləcəyi ehtimalına da cavab verib: "Mənim Ermənistandakı seçkilər barədə şərh vermək səlahiyyətim yoxdur. Lakin tərəflər sülh yolu ilə həllə sadiqdirlər və biz bunun dəyişəcəyini gözləmirik".

## Bakıda 17 yaşlı oğlan atasını bıçaqla öldürdü

**Bakıda qətl törədilib. Xəzər rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə rayonun Binə qəsəbəsi, Südçülük Sovxozunda qeydə alınıb. Orada yaşayan, 17 yaşlı Kənan Qulu oğlu Qasımov atası, 41 yaşlı Qulu Qasımovu bıçaqlayaraq qətlə yetirib.**

## Bakıda evdə saxlanılan vəhşi heyvan qaçıb

**Bakıda evdə saxlanılan yenot qaçıb. Lent.az-ın məlumatına görə, hadisə Binəqədi rayonu 9-cu mikrorayon, Mir Cəlal küçəsində baş verib. Sentyabrın 30-da evdən naməlum şəraitdə yoxa çıxan vəhşi heyvanı tapmaq mümkün olmayıb. Heyvanın sahibi onun yoxa çıxması ilə bağlı bildiriş kağızlarını divarlara yapışdırıb.**

Bildiriş kağızlarında heyvan sahibinin əlaqə vasitələri qeyd edilib.

**"1937-ci ildə, tuthatut vaxtları rəhmətlik atam İsmayıl Şıxlı ilk dəfə gəlir Bakıya. İndiki Yazarlar Birliyi binası o zamanlar yaşayış binasıydı. Necə olursa, bilmirəm, atam məhz bu binada, indi Anarın oturduğu otaqda bir müddət yaşamalı olur. Gün-güzəranını keçirir orda. Bakının xeyr, şər işlərinə qarışır. Bəlkə, nə bilim, müharibənin ilk gününü də məhz bu ünvanda yaşayır... Sonra, 1981-ci ildə, düz 44 il sonra İsmayıl Şıxlı, həmin binaya, həmin kabinetə bir dəfə də dönüb qayıdır. Amma bu dəfə adi vətəndaş kimi deyil, AYB-nin sədri vəzifəsində. Yeddi il o otaqda yazıb yaradır".**



# Elçin Şıxlı: "Axırda həmişə qalib özüm oluram..."

## Yazışı-jurnalist: "Hesab edərəm bu şəxsiyyətlər xalqımıza uca göylər tərəfindən bayram hədiyyəsi, ulduz yağışı kimi verilib"

Elçin Şıxlının dilindən eşitdiyim bu qəliz məlumatdan sonra ancaq susmaq olardı. Mən də susdum. Akvariumdakı əl-əlvan balıqlar da qoşuldu bu sükutuma.

Akvariumun həyat ritmiylə söhbətimizin axarı bu nöqtədə, bir nöqtədə birləşib eyniləşdi. Suda köpüklənən hava axarının səsi, muğamatı xatırlatdı. Hiss etdim balıqlar Elçinə yaxşı bələddirlər. Hərəkətlərini, xasiyyətini həmişə təkrarlayırlar.

- Yemlərini həmişə vaxtında vermişəm deyə balıqlar mənə yamanca öyrəşiblər. Özü də, əvvəlcədən bilirlər, hiss edirlər sonrakı növbəti hərəkətlərimi.

Söhbətimizin lirik ricəti burda nəhayət bitdi. Yenə qayıtdım öz qəliz suallarıma:

***- Yazıçı qələmi istəyir siz deyən mövzular, xatirələr, - deyib, köksümü ötürürəm. - Yazıçı olsaz, oxşar mövzulara müraciət edərdiz, eləmi?***

- Bilirsiz, doğum günü novruz bayramına düşən bir dəstə Azərbaycan yazarı var - Süleyman Rəhimov, Səməd Vurğun, Mehdi Hüseyn, Cəfər Cabbarlı... Siyahını rəhmətlik atam qapayır. O da, bəli, qəribədir, Novruz günü dünyaya göz açmışdı. Təsadüf bilmərəm bunu. Hesab edərəm bu şəxsiyyətlər xalqımıza uca göylər tərəfindən bayram hədiyyəsi, ulduz yağışı kimi verilib.

Akvariumdakı balıqların bu vaxt elə bil donu açılır. Həyəcanlanıb, akvariumda vurnuxmağa başlayırlar. Eyni həyəcanı öz daxilimdə də hiss edirəm. Qorxuram ağzımı açıb nəsə deyim. Söhbətimizin incə məqamıdır. Elçinə əsla mane olmuram.

***- Bəli. Bu, mistik mövzulardır. Yazıçı olsam təkcə həmin mövzularla kifayətlənməzdim. Məsələn, atam 26 iyulda dünyasını dəyişdi, anam 26 sentyabrda.***

-Elçin, söhbət əsnasında ilk dəfə gülümsəyir. Fürsəti boşa verməyib, mən də bu xəfif gülüşə qoşuluram:

***- Hə... qəribədir... Ancaq mən burda numeroloji sirlər axtarmazdım. İnsani hisslər axtarardım burda. Valideynlərinizin bir-birinə sədaqətini görərdim həmin 26 rəqəmində.***

- Hə... elədir... Ancaq gördüyünüz kimi, onların həm doğum, həm ölüm tarixləri sadə, elə belə, kor təsadüf deyilmiş. Əvvəldən bir missiyası olub onların.

***- Görürəm Sizi mistik, numeroloji mövzulara ciddi marağınız var. Bu nöqtədə tale bizi elə belə görüşdürməyib düşünürəm. Yazıçı olsaydız görürəm, həmin mövzulardan əl çəkməz, ədəbiyyatımıza Edqar Po, Stiven Kinq ənənələrini gətirərdiz.***

### Küncdən zərbə

Elçindən aldığım qələmin mürəkkəbi bu vaxt bitir deyə, qeydlərimi yarımçıq kəsməli oluram. Kabinetdə katibə-filan yoxdu. Elə isti pürrəngi çay da. Üstəlik, yazı masasındakı bütün qələmlərin mürəkkəbi tükənib. Jurnalistikamızın yaşadığı böhran dövrü, bu kabinetdə özünü açıq-aşkar göstərir.

- Təhsil aldığım 190 saylı orta məktəbin ədəbiyyat müəllimi Zərbəli Səmədovla münasibətlərimiz əvvəlcədən soyuqdu, - hiss etdim ki, Elçin öz həyatının ən qədim, köhnə günlərinə qayıtmaq istəyir.

***- Ədəbiyyat sahəsində ilk zərbəni Zərbəli Səmədovdan almışdınız, eləmi?***

- Həəə... Bir gün o, yazdığım inşanın birində vergül səhvi tutdu. Məzmuna, qrammatikaya görə iki qoşa "2" yazdı gündəliyimə. Dalımca donquldandı - "Şair oğlusan neynim? Gəlib, oturmalısan boynumda?" İki həftə dərsə gəlmədim, sinfə daxil olmadım. Bəxtimdən 2 həftə sonra məktəbimizdə Süleyman Rüstəmlə görüş keçirildi. Qonaqlar sırasında atam da vardı. İxtilafımızı birtəhər yoluna qoydular...

***- Zərbəli müəllim, şagirdlərə zərbə vurmasa, öz adını doğrultmazdı. Aradan gör neçə illər ötüb, siz isə hələ də Zərbəlinin bu zərbəsini unutmayıbsız. Olmaz belə. - iradlarım, deyəsən Elçini xeyli təəssüfləndirir. O, yerindən qalxıb şəffaf şüşə akvariuma yaxınlaşır. Elçini, bax bu cür, balıqlara yem verən anda görmək, düzü, lap gözlənilməz olur mənimçün. Mənzərə, həqiqətən ürəyimi kövrəldir. Hiss edirəm ki, Zərbəli müəllimin zərbəsi hələ də Elçinin daxilini göynədir...***

"Elçinin ədəbiyyatdan ayrılıb jurnalistikaya üz çevirməsi Zərbəli müəllimin bax bu "zərbə"sindənmi qaynaqlanıb?", sualını daxilimdə özümə pıçıldayıb səsimi xırp kəsirəm. Qorxuram bu sualımı Elçin Şıxlı eşitsin.

*Balıqlara borcunu ödəmiş Elçin masa arxasına qayıdıb bu ağrılı mövzunu davam etdirir.*

- Zərbəli müəllim ağır, samballı adamdı. Etiraf edərdi ki, qrammatikanı heç özü də beşə bilmir. Sonrakı növbəti dərsimiz "Hacı Qara"ya həsr edilmişdi. Suallara cavab verməyə xatir, Roma yazarı Plaftın "Xəzinə", Molyerin "Xəsis", Balzakın "Qobsek" əsərlərini son nöqtəsinə qədər oxuyub yazı taxtası önünə gəldim. Zərbəli müəllim, yadımdadı, bunları diqqətlə dinlədi. Axır çox xəsis bir cavab qaytardı mənə - "Düzəlibsən... Şükür, başlayırsan oxumağa".

***

*Hiss edirəm xatirələrdən qırılıb günümüzə qayıtmağın əsl zamanıdır. Fürsəti əldən verməyib mövzumuzu müasirləşdirirəm.*

***- Sonralar Sizə zərbə vuran növbəti Zərbəlilər bəs necə, yenə də oldumu? Çoxmu əziyyət çəkdiniz həmin zərbələrdən?***

Bir tərəfdə Elçin sükuta qərq olub, digər tərəfdə akvariumdakı al-əlvan balıqlar. Əvvəl gözləri gülür Elçinin. Sonra dodaqları başlayır xəfifcə titrəməyə. Balıqlar anında bu həyəcanı paylaşır. Şüşə arxasında yamanca fəallaşırlar.

- Düz dediz. Necə deyərlər "kitabın düz ortasından". Bəli, həyatda aldığım o ilk zərbə, sonralar silsilə şəkli aldı. Zərbələr indiyədək davam edir. Ancaq, Zərbəli Səmədov, bünövrəmi yaxşı qazıb. Zərbələrə öyrəncəliyəm. Bir başqa müəllimim dayəm Matilda Yevqrafovna Kolonova idi. Ondan rus dilini, ədəbiyyatını öyrəndim. Volqa boyu ruslarındandı. Bağçaya getməməyim bəlkə bu kübar xanımla bağlıydı. Digər müəllimim rus dili müəlliməsi Mariya Semyonovna Sıç idi. Bir dəfə, bilməm niyə, "2" aldım bu xanımdan. Bərk acıqlandım. Evə gəlib Mayakovskinin "Lenin" poemasını bittə-bittə əzbərlədim. Bir gün mənə bəs elədi. Sabahısı gün yazı taxtası önünə sıçrayıb poemanı başdan-ayağa əzbər oxudum. Hamı təəccübləndi buna, vallah. Bir özümdən başqa. Bir də gördüm, sinifdən hıçqırıq səsləri yüksəlir. Baxıb gördüm Mariya Semyonovnadı. Əlləriylə üzünü örtüb, için-için ağlayır...

***

***- Demək...***

*Sözüm ağzımda yarımçıq qalır. Elçin, necə deyərlər, estafeti götürüb, eyni sözlə söhbətinə başlayır.*

- Demək, Zərbəlilərin zərbəsi mənə həmişə müsbət təsir edib. Nəticələri həmişə xeyrimə olub. Bu səbəbdən üstümə yağan zərbələrdən kənara çəkilmirəm. Həmişə son məqamda uduram. Növbəti məqamda uduzmağım, həəə, mümkündü. Ancaq, axırda həmişə qalib özüməm.

***- Növbəti mərhələdə uduzmaq, axırda qalib gəlmək...hmmmm...bu, ciddi adamların işidi...Kimdən götürdünüz bu təcrübənizi? - deyib, akvariumdakı balıqlar kimi bir nöqtədə donub qalıram.***

- İlk növbədə valideynlərimdən. Anam boğaz-qulaq həkimiydi. "Basin" küçəsindəki poliklinikalardan birində həkim işlədi ölən gününəcən. Sonrakıların adını bayaq çəkdim sizə - Zərbəli Səmədov, dayəm Matilda Yevqrafovna Kolonova, rus dili müəlliməm... Görünür, başqaları da olub bu uzun siyahıda.

***

### Şıxlı məzarlığı

***- Elçin bəy, bəs siz niyə Şıxlı ocağınızı xatırlamayırsız? "Dəli Kür" filminin ilk kadrlarındakı Cahandar ağa, atüstəykən, yaxınlıqdakı məhz bu müqəddəs ünvana tələsirdi sanki. Amma, birdən o atının cilovunu cəld özünə tərəf çəkir. Yolunu dəyişir. Düşür Mələyin caynağına. Orda da məhv olur. Həmişə belə hesab edərdim ki, Cahandar ağa Mələyi oğurlamayıb. Tam tərsinə, Mələk oğurlayıb Cahandar ağanı...***

*Tam vaxtında səslənən bu fikirlərimə Elçinin reaksiyası, cavabı gözlənilməzdi mənimçün:*

- Kişilərə həmişə elə gəlir ki, bəs guya biz ixtiyar sahibiyik. Roman da göstərir ki, əslinə qalsa bu belə deyil. Bəli, Cahandarı Mələk oğurlayıb, nəinki Cahandar Mələyi. Bilirsiz, Cahandar ağa kimilər, müəyyən bir əxlaq kodeksinin cangavərləriydilər. Ömürləri boyu əxlaq kodeksi ilə yaşamışdılar. Bir gün, Cahandar ağa Şıxlı ocağı tərəfdə yolunu azıb bir başqa ünvana gəlir. Kodeksini unudub, yad arvadını qaçırdır. Nəticədə ölümə yuvarlanır, bax, o uca təpənin kəlləsindən aşağı.

***- Təpənin ətəyində isə Şıxlı ocağı yerləşir, - deyib, mövzunu lap qızışdırıram. - Qəribə yol ayrıcıdır ora. Bir tərəfdə dirilik suyu, qarşı tərəfdə qadın və ölüm. Qəribə təzaddı. Düşünülmüş qarşıdurmadı. İsmayıl Şıxlının qəhrəmanları bu yol ayrıclarında qalıb çapalayırdılar elə bil...***

*Əlimdəki qələmin qurumuş mürəkkəbi, şükür, bu vaxt canlanıb dirilir. Sanki, söhbətimizin təsir gücüylə baş verir bu. Elçin də bunu gözündən qaçırmır. Gülümsəyib, mövzuya davam edir:*

- Qısası, əxlaq kodeksini pozmaq olmaz. Xüsusən Cahandar ağa kimilərə.

***- Şəxsi təcrübənizdənmi qaynaqlanır bu qənaətiniz?***

*Sərrast sualım vaxtında səslənir elə bil. Ox olub Elçinin ürəyinə sancılır. Onun qısa cavabında bir ömür təcrübəni hiss edirəm.*

- Bəli.

***

*İsmayıl, Elçin Şıxlıların canında, ruhunda Şıxlı ocağının güclü təsiri hiss olunur. Bu ocaq qəribə, paranormal bir ünvandadır. El arasında ona Gəmiqaya da deyirlər. Guya Nuhun gəmisi orda tufan zamanı dayanıb. Guya həmin ərazidə o gəminin mirası var. Məncə, həmin mirası ordakı dağda, daşda axtarmaq əbəsdi. Həmin mirası gəlin indi yerli sakinlərin, Şıxlı soyadını daşıyanların daxilində, psixikasında axtaraq. Məsələn, bu kəndə sanki ölüm, əli dəryazlı Əzrayıl yoxdu. Burdan müharibəyə gedənlər həmişə geriyə sağ-salamat qayıdırlar. Böyük Vətən Müharibəsi dövründə də belə olub, Qarabağ savaşı vaxtı da. Qısası, bu kənddə əsgərlərə ölüm yoxdu. İsa Hüseynovun "Tütək səsi" kinofilmində, povestində bu fenomen geniş şərh edilir.*

***

*Mövzu ətrafındakı fikirlərimi bu dəfə Elçin Şıxlının özüylə bölüşdüm. Aldığım cavab həqiqətən heyrətamizdi:*

- Atamın bir dəfə qara kağızı Şıxlıya gəlmişdi. Qohumlarımız o gündən qan-yasa batmışdılar. Ocağa gedib, elə hey atamı səsləyərdilər. Bir də görürlər ki, bəs uzaqdan qaraltı gəlir. Sonrasını day danışmıram. Sonrasını "Tütək səsi" filminin son kadrlarında görsəz yaxşıdı...

***- Demək, sizlərdə bir ölməzlik var, eləmi? Nisbi mənada əlbəttə...***

- Nə bilim...- Elçin Şıxlı, bir an öz daxilinə çəkilir. Xəyallarında Şıxlı ocağına qayıdır bəlkə də. Arada kövrəlib dərindən udqunmağı diqqətimdən yayınmır.

- Növbəti sualımı qorxa-qorxa, çəkinə-çəkinə səsləndirirəm:

***- Bakılılar demiş, Nizami kinoteatrının 22 sırasından görünən pedaqoq, müəllim istedadı duyulur sizdə. Atanız müəllim, babanız Qəhrəman Şıxlinski, Qori müəllimlər seminariyasının məzunu.***

*Elçinin sualıma cavabı, tam gözlənilməz olur bu dəfə də mənimçün.*

- Düzü, mənimçün ölməzlik fenomeni, nəsildən nəslə ötürülən bax bu pedaqoq istedadımızdadır. Azərbaycanda maarifçiliyin qələbəsini təmin edənlərin sırasında Şıxlılar həmişə ön sırada addımlayıblar. Özümü də həmişə onların arasında hiss edərəm. Hesab edirəm Qori müəllimlər seminariyasının təcrübəsinə indi də ciddi ehtiyac mövcuddur.

***

*Akvariumdakı balıqlara bu dəfə birlikdə yem verdik. Balıqlar mənə çox tez alışdılar. Sonrakı söhbətlərimiz, mövzudan kənardı deyə onları day diqqətinizə çatdırmıram. Balıqlarla danışanlar isə, bilin, sükut dilinə də dərindən bələd olurlar.*

*Elçinlə həm bu dildə danışdıq, həm də öz dilimizdə.*

*Hər iki dildə eşitdiklərim doğrudan da çox maraqlıydı.*

**❑ Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 221 (6542) 7 oktyabr 2016

# Müxalifətçi partiya sədrləri prezident və parlament seçkilərini gözləyirlər




## İqbal Ağazadə: "Mütləq növbədənkənar seçkilər olmalıdır"

**Sentyabrın 26-da keçirilən referendumun nəticələrinin qüvvəyə minməsindən sonra prezident və parlament seçkilərinin təyin ediləcəyi barədə xəbərlər yayılmaqdadır. Seçki Məcəlləsinin 138.1 və 138.4 maddəsinin tələbinə görə, referendumun yekun nəticələri ən geci oktyabrın 21-dək MSK tərəfindən rəsmən elan edilməlidir. Konstitusiyaya yeni dəyişikliklər bundan sonra qüvvəyə minəcək. Məlumatlara görə, Mərkəzi Seçki Komissiyası gələn həftə sözügedən addımı atacaq.**

Referendumun nəticələri qüvvəyə mindikdən sonra ölkə prezidenti konstitusiyaya əsaslanaraq 1-ci vitse-prezident, vitse-prezidentlər təyin etməlidir. Hakimiyyət rəsmilərinin, iqtidara yaxın deputatların, bir sıra siyasətçilərin və ekspertlərin indiyə qədər verdiyi açıqlamalarda, proqnozlarda referendumun nəticələrinin qüvvəyə minməsindən sonra ölkədə ciddi dəyişiklərin, islahatların həyata keçiriləcəyi vurğulanır.

Referendumun nəticələri təsdiq olunub qüvvəyə mindikdən sonra islahatlar bütün istiqamətlərdə özünü göstərəcək. Açıqlamalarda və məlumatlarda qeyd edilir ki, bu ilin sonuna kimi ölkə idarəetməsində inqilabi səviyyədə dəyişikliklər, islahatların şahidi olacağıq.

İqtisadi və siyasi islahatlar yeni prezident seçkilərini də gündəmə gətirib. Məlumdur ki, yeni konstitusiya dəyişikliyi ilə vitse-prezident, birinci vitse-prezident institutu təsis olunub və bu, yeni bir situasiya yaradıb. Azərbaycanda növbəti prezident seçkilərinə təxminən iki il müddət qalır. Parlament seçkiləri isə bir il öncə keçirilib. Lakin Konstitusiyadakı yeni dəyişikliklər prezidentə yeni prezident və parlament seçkilərinin keçirilməsi barədə sərəncam vermək səlahiyyəti verir. Xəbərlərdə bildirilir ki, növbədənkənar prezident seçkilərinin bu ilin dekabrında, parlament seçkilərinin isə gələn ilin martında, yaxud hər iki seçkinin dekabrda eyni gündə keçirilməsi istisna deyil.

Müxalifət düşərgəsində tanınmış siyasətçilər hesab edir ki, yeni prezident və parlament seçkilərinin keçirilməsi gözləniləndir. Çünki hər şeydən öncə hüququn fəlsəfəsi bunu tələb edir. Bu barədə danışan **Ümid Partiyasının sədri İqbal Ağazadə**nin sözlərinə görə, hüququn fəlsəfəsi onu tələb edir ki, Konstitusiya ilə icra strukturlarının və qanunverici orqanın vəziyyətində dəyişiklik olubsa, mütləq yeni seçkilər keçirilməlidir. Çünki 2013-cü ildə keçirilən prezident seçkilərində xalq konstitusiya ilə səlahiyyətləri başqa olan prezidentə səs verib. O cümlədən, 2015-ci il parlament seçkilərində də xalq səlahiyyətləri fərqli şəkildə olan Milli Məclisin seçkilərində iştirak edib: "Qanunun fəlsəfəsi onu deyir ki, bu, ya konstitusiyada keçid müddəaları altında "filan



ildən qüvvəyə minəcək" kimi xüsusi qeydlə qəbul olunmalı idi, ya da icra hakimiyyətinin və parlamentin vəziyyətində bu qədər dəyişikliklər baş veribsə-səlahiyyətlər artırılıb-azaldılıbsa, mütləq yeni seçkilər keçirilməlidir. Bu seçkilərin keçirilməsi barədə qərar qəbul etmək isə yeni qəbul edilən qanunla prezidentin səlahiyyətindədir. İndi prezidentin ixtiyarı var bu barədə qərarlar versin və bunu etməlidir.

Vitse-prezidentlərin təyin edilməsi, parlamentin buraxılması və digər bir sıra səlahiyyətlər 2013-cü ildə seçilən prezidentə verilməmişdi. Ona görə hökmən yeni prezident seçkiləri keçirilməlidir. Hesab edirəm ki, hüququn bu fəlsəfəsini hakimiyyət də kifayət qədər yaxşı bilir. Mütləq prezident və parlament seçkiləri keçirilməlidir".

İ.Ağazadə bu işin nə qədər tez reallaşdırılacağını indidən dəqiq söyləməkdə çətinlik çəkir, amma islahatlar anonsu verirlərsə, əgər düşünürlərsə ki, idarəetmədə yeniliklər, yeni təyinatlar olacaq mütləq daha tezliklə olmalıdır: "Hüquq artıq bunu təsbitləyib. Bizim referenduma münasibətimizin, seçicinin münasibətinin, beynəlxalq təşkilatların münasibətinin nə olmasından asılı olmayaraq 26 fevral tarixində keçirilən referendumdan sonra konstitusiyanın yeni tələbləri var və bunlar həyata keçirilməlidir. Prezident və parlament seçkiləri keçirilməyəcəyi təqdirdə yeni konstitusiya ilə verilən səlahiyyətlərdən prezidentin bu və ya digər şəkildə istifadə etməsi hüquqa zidd hesab oluna bilər. Əgər referendum konstitusiyada icra və qanunverici orqanın vəziyyətini dəyişməyib yalnız insan haqları ilə bağlı vəziyyəti dəyişmiş olsaydı, yaxud da daha aşağı qurumların vəziyyətini dəyişmiş olsaydı, prezident və parlament seçkilərinə heç bir ehtiyac qalmazdı".

**Prezident və parlament seçkilərinə gediləcəyi halda bu seçkilərin ənənəvi şəkildə, yoxsa islahat adlandırılacaq səviyyədə keçiriləcəyi ehtimalına gəlincə, İ.Ağazadə qeyd etdi ki, bu barədə qəti bir fikir söyləmək çətindir**: "Mən hüququ şərh elədim. Qalan hissəsinə isə seçkilərlə bağlı sərəncam veriləndən və hakimiyyətin yanaşmalarından, o cümlədən beynəlxalq təşkilatların münasibətindən, siyasi partiyaların yanaşmasından asılı olaraq rəy bildirmək olar. Hələlik isə hüququ şərh edərkən deyirəm ki, mütləq olunmalıdır".

**VİP sədri Əli Əliyev** də bildirdi ki, yeni redaktəli konstitusiya növbədənkənar prezident seçkilərini zəruri edir. Yəqin ki, Konstitusiya Məhkəməsinin qərarından sonra növbədənkənar seçkilərin təyinatı haqda məlumat alacağıq: "Gözlənilən prezident seçkilərinin demokratik və ədalətli olacağına inamım çox deyil. Lakin intuisiyam ondan sonrakı dönəmdə dəyişikliklərin olacağını deməyə ehtimal formalaşdırır. Hesab edirəm ki, seçkilər dəyişikliklərin anonsu olacaq.

Dəyişiklik mütləq olacaq. Sadəcə olaraq, dəyişikliyin sərhədlərini cızmaq olmur. Əgər iqtidar ən yüksək səviyyədə bizi gözləyən siyasi, iqtisadi, maliyyə, beynəlxalq, ola bilər hərbi və sair kataklizmlərin fərqindədirsə, dəyişikliklər idarəçilik fəlsəfəsini, müvafiq olaraq menecment üslubunu və daha geniş kadr çevrəsini əhatə edəcək. Yox əgər, daxili müvazinəti qorumağa və daxili təzyiqi balanslaşdırmağa təşəbbüs olacaqsa, vəziyyətə müsbət çalar gəlməyəcək.

Seçim haqda rəyin ilk indikatoru isə prezident seçkilərindən sonra parlament seçkilərinin keçirilib-keçirilməməsi olacaq. Əgər prezident təkrar seçilərsə-buna mənim şübhəm çox deyil- gələn ilin birinci yarısında kirəcləşmiş bugünkü Milli Məclisin tərkibindən imtina edərək, yeni parlament seçkilərinə qərar versə, bu o deməkdir ki, islahatlar dərin və əsaslı ola bilər.

İqtidarın bir sıra iqtisadi yeniliklərini müşahidə etməkdəyik. Əgər reformalar siyasi müstəviyə də keçəcəksə, deməli iqtidarın əsaslı dəyişiklik istəyindən söz açmağın yeri olacaq. Digər versiyanı heç dilə gətirmək istəmirəm. Çünki vəziyyətin dondurulması və olduğu kimi yürüməsi aqibətimizi qeyri-müəyyən edir".

❑ **Etibar SEYİDAĞA**

# Müstəqillik Günü tarixinin dəyişdirilməsi təklifinə reaksiya

## Pənah Hüseyn: "18 oktyabr Müstəqilik Günü kimi dövlət səviyyəsində qeyd olunsun"

**"Azərbaycanın Müstəqillik Günü tarixi 1991-ci il dekabrın 29-dan hesablanmalıdır". Bunu respublika.az-a açıqlamasında Azərbaycanın sabiq prezidenti Əbülfəz Elçibəyin müşaviri olmuş deputat Fazil Mustafa təklif edib.**

F.Mustafa fikrini belə əsaslandırıb ki, 1991-ci il dekabrın 29-da Azərbaycanın dövlət müstəqilliyi haqqında Ali Sovetin Konstitusiya Aktının qəbul olunması məsələsi barədə referendum keçirilib. Onun sözlərinə görə, həmin referendumda "Siz Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktına tərəfdarsınızmı" sualı qoyulub. Həmin referendum zamanı seçicilərin mütləq əksəriyyəti qoyulan sualın lehinə səs veriblər: "Bu baxımdan da mən təklif edirəm ki, Azərbaycanın müstəqillik günü 1991-ci il dekabrın 29-da keçirilən müstəqillik referendumundan götürülsün. Çünki bu referendumun nəticəsi Azərbaycanın xalqının iradəsini ortaya qoydu. Digər tərəfdən isə 1991-ci ilin Referendum Aktı Milli Şuranın qəbul etdiyi sənəddən də daha üstündür. Yəni, Referendum Aktı birbaşa xalqın iradəsinə söykənən sənəddir. Azərbaycanın müstəqilliyinin bu tarixdən hesablanması üçün hüquqi əsaslar da mövcuddur".

**F.Mustafa Azərbaycanın müstəqillik gününün 1991-ci il avqustun 30-da qəbul edilən Müstəqillik haqqında Bəyannamənin qəbulu tarixindən götürülməsi ilə bağlı səslənən təkliflərə münasibət bildirib.**



**Deputat xatırladıb ki, 1989-cu il sentyabrın 23-də Respublika Ali Sovetinin sessiyası tərəfindən "Azərbaycan SSRİ-nin suverenliyi haqqında" Qanunu qəbul olunub. Daha sonra isə Müstəqillik haqqında Bəyannamə qəbul edilib:** "Ancaq bu Bəyannamə Müstəqillik Aktı demək deyil idi. Bu sənəd Müstəqillik Aktı barədə iradə demək idi. Doğrudur, Özbəkistanda və digər ölkələrdə müstəqillik üçün bəyannamə kifayət edirdi. Ancaq Azərbaycanda 1991-ci ilin 18 oktyabr tarixi əsas götürülüb. Bu tarix rəsmi sənəd olaraq həm də daha legitim qurum olan Milli Şura tərəfindən qəbul olunurdu. Ona görə də bu sənəd Azərbaycan müstəqillik tarixi ilə bağlı əsas sənədə çevrilib. Bu baxımdan da "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı 1991-ci ilin avqustun 30-da qəbul edilən Müstəqillik haqqında Bəyannamədən daha legitim və mötəbər sənəddir".

Qeyd edək ki, Azərbaycanın müstəqillik günü 28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gündən hesablanır və dövlət bayramı olaraq keçirilir. Azərbaycanın müstəqilliyinin bərpa olunduğu gün isə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunduğu gün hesab edilir. Sözügedən Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Sovetində qəbul edilib.

Fazil Mustafanın təklifinə Azərbaycan xalq hərəkatının liderlərindən biri olmuş keçmiş baş nazir, **AXP sədri Pənah Hüseyn** "Yeni Müsavat"a açıqlamasında münasibət bildirib. P.Hüseyn qeyd etdi ki, müstəqillik günü tarixinin dəyişdirilməsinə ehtiyac yoxdur: "Azərbaycan Respublikasının istiqlal günü olan 28 May günündən sonra ən şərəfli günlərdən biri 18 oktyabr dövlət müstəqilliyi günüdür: "18 oktyabrda qəbul olunan "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında həm dövlətin müstəqilliyinin bərpası nəzərdə tutulurdu, həm də dövlət quruluşunun əsasları, bərpanın hüquqi əsaslarını, yeni dövlət quruculuğu prinsiplərini özündə əks elətdirən müddəalar öz əksini tapırdı. Bu Konstitusiya Aktına o zaman Azərbaycanda bütün siyasi qüvvələrin nümayəndələri tərəfindən yekdilliklə səs verilmişdi. Eyni zamanda həmin gün qərara alınmışdı ki, 18 oktyabr Müstəqilik Günü kimi dövlət səviyyəsində qeyd olunsun. 18 oktyabrın Azərbaycanın müstəqilliyinin bərpa olunduğu günü kimi qeyd olunması doğrudur. Çünki bu tarix Azərbaycan tarixinin şanlı səhifələrindən biridir. Bu günün qeyri-iş günü olan bayramlar sırasına daxil edilməsi lazımdır.

İndiki hakimiyyət özünün iştirakçısı olmadığı hadisə və prosesləri, tarixi günləri gözdən salmaq, əhəmiyyətini azaltmaq siyasəti yürüdür. 18 oktyabr dövlət müstəqilliyi bayramının statusunun aşağı salınması, həmin günün iş günü elan olunması həm də bununla bağlıdır. Təsadüfi deyil ki, dövlət müstəqilliyinin bərpasının 25 illiyinə az qalsa da 25 illik həmin tarixi hadisənin əhəmiyyətinə uyğun səviyyədə qeyd olunmur. Bu bayramın statusuna uyğun səviyyədə qeyd olunmasına ehtiyac var".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 221 (6542) 7 oktyabr 2016

**SOCAR-ın Kapital Bazarları üzrə Baş Məsləhətçisi Ali Ağaoğlu SOCAR istiqrazı ilə bağlı "Yeni Müsavat" qəzetinə müsahibə verib. A.Ağaoğlu müsahibəsində vətəndaşları düşündürən, narahat edən bütün sualları cavablandırıb.**



# SOCAR-ın baş məsləhətçisi "Yeni Müsavat"a danışdı: "Bu istiqrazlarda məqsəd odur ki..."

## Ali Ağaoğlu: "İstiqrazların satış müddəti oktyabrın 10-da bitir, ikinci bazarda isə qiymətlər bir qədər baha olacaq"

### Müsahib haqqında qısa arayış

*Ali Ağaoğlu 1963-cü ildə Ankarada doğulub. 1980-ci ildə Boğaziçi Universitetində Menecment fakültəsinə daxil olub. 1986-cı ildən bank sektorunda fəaliyyətə başlayıb. 2001-ci ilə qədər Standard Chartered və Stochelandes kimi xarici banklarda, o cümlədən Ege banklarında çalışıb.*

*2001-ci ildə Tassaruf Mevduati Sığorta Fonduna (TMSF) daxil olub və bir ilə yaxın Kamal Derviş zamanında TMSF-nin tərkibində olan 9 bankın xəzinələrinin koordinasiyasını həyata keçirib. Dünyada ilk dəfə olan depozit satışı və çox böyük iqtisadi layihələri həyata keçirib.*

*2004-cü ildən Türkiyənin "Vatan" qəzetində yazır, 2008-2012-c illərdə "Fortune" jurnalında yayım müdiri olub.*

*2015-ci ildən SOCAR Türkiyədə Finansal Risk Yönətimi və Xəzinə Kordinatoru kimi çalışır. 2016-cı ildən SOCAR-ın Kapital bazarları üzrə baş məsləhətçisi işləyir.*



**"Yastıq altındakı pulların iqtisadiyyata cəlb edilməsi üçün istiqrazlar vasitəsilə belə bir infrastruktur formalaşdırmaq qərarına gəlindi"**

***- Ali bəy, dövlət şirkəti olan SOCAR niyə istiqraz buraxıb? İnsanları düşündürən əsas suallardan biri də budur. Bu, beynəlxalq iqtisadi böhranla bağlıdır, yoxsa yeni bir mərhələnin başlanğıcıdır?***

- SOCAR dünyanın ən böyük neft şirkətlərindən biridir. Fəaliyyət göstərərkən bir çox yeni investisiyalar, yeni layihələr həyata keçirməlidir. Bunun üçün də vəsaitə ehtiyacı var. Bu zaman normal olaraq xaricdən və daxildən vəsait cəlb edilməlidir ki, həmin investisiyalar icra edilə bilsin. Bu iş dünyanın hər yerində bu qaydada aparılır. Bu məqsədlə SOCAR daha əvvəl avrobondlar ixrac etməklə xaricdən 2 milyard 250 milyon dollar civarında vəsait cəlb etdi. O cümlədən, Türkiyədəki investisiyaları üçün də hissə satışı vasitəsilə vəsait cəlb etdi. İndi də bu layihələrini davam etdirir. Bu çərçivədə Azərbaycan iqtisadiyyatına baxarsaq, çox ciddi miqdarda yastıq altında olan, hazırkı sistemdən kənara çıxan və hər hansı şəkildə gəlir gətirməyən, faiz qazana bilməyən bəlli bir sərmayə var. Bu vəsaitlərin iqtisadiyyata cəlb edilməsi üçün Azərbaycan dövlətinin atdığı bir sıra addımları ilə yanaşı, dövlət şirkəti olan SOCAR da istiqrazlar vasitəsilə belə bir infrastruktur formalaşdırmaq qərarına gəldi. Bu yolla sistemdən kənarda qalan əmanətləri iqtisadiyyata cəlb etməyin bir yolunu tapa bilmək üçün çalışmağa başladı. Əsas məqsəd də Azərbaycanda sərmayə bazarının çox aktiv olmadığı hazırkı durumda, daha çox inkişafını təmin etmək üçün belə bir addım atılmasının zəruri olduğuna qərar verildi. Bu məqsədlə ilk olaraq belə bir istiqraz buraxıldı. Biz bununla bağlı öncədən uzun bir müddət çalışdıq. Mən bu ilin əvvəlindən Azərbaycandayam, daim gəlib gedirəm.

Bu istiqrazların çıxarılmasının bir neçə məqsədi var. Əsas səbəb SOCAR-ın bundan sonrakı dövr üçün maliyyələşmə imkanlarının şaxələndirilməsidir. Məqsəd vəsaitləri sadəcə xaricdən kredit və ya avrobondlar vasitəsilə cəlb etməklə yanaşı, daxildəki maliyyə qaynaqlarının da iqtisadiyyata cəlb etmək üçün bir addımın atılması idi.

Burada bir infrastruktur var, bunun uğurlu bir şəkildə bir-birinə inteqrasiya edilməsi sadəcə SOCAR üçün deyil, digər Azərbaycan şirkətləri, maliyyə bazarları üçün də bir infrastruktur hazırlanması və bazarın inkişafı üçün aparılan bir işdir. Bunu yalnız istiqrazla əlaqələndirmək doğru deyil, istiqraz vasitəsilə Azərbaycanda kapital bazarının inkişaf etdirilməsi ən önəmli məqsədlərimizdən biridir.

***- Azərbaycan vətəndaşlarının SOCAR istiqrazlarına münasibəti necədir? Vətəndaşlar isti yanaşdılar, yoxsa hələ də düşünürlər? Proseslər necə gedir?***

- Bütün inkişaf etməkdə olan ölkələrin bazarlarında belə hallarda cəmiyyətin ilk reaksiyası bir qədər gecikir. Dövlət tərəfindən bu cür addımlar atılırsa, xalqın ilk reaksiyası adətən "dur bir qədər gözləyək, görək nə olur" şəklində olur. Bu sadəcə Azərbaycan vətəndaşların xas olan bir davranış deyil. Bütün insanların ortaq davranışı belədir ki, öncə tədbirli yanaşırlar, sonra bir müddət daha gözləyirlər. Daha sonra kimlərsə bu işdən pul qazanır və hər kəs ardınca gəlməyə başlayır. Ancaq ilk alanlar bu işin qaymağını götürür. Çünki İkinci bazarda tələb artır və qiymətlər qalxır. *(Məlumdur ki, hər zaman ilk istiqrazlara ən yaxşı şərtlər verilir. Bizdə də belədir).*

O zaman da bazar genişlənir və hər şey yoluna düşür. Bizim istiqrazların satışı başlayarkən də buna bənzər bir durum yarandı. Biz istiqrazların reklamını apardıq, tanıtımını etdik, müsahibələr verdik, müxtəlif formalarda cəmiyyəti məlumatlandırdı. Başlanğıcda bu sahə ilə bağlı bilgili olan insanlar istiqrazların faydasının fərqində olduğu üçün gəlib aldılar. Ümumi əhali isə gözləmə mövqeyi tutdu. Lakin bu həftə təkrarən maraq çox artmağa başlayıb. İstiqrazların satış müddəti isə oktyabrın 10-da bitir. İstiqrazı alacaq vətəndaşların alışlarını son günə buraxmamalarını və həftə sonu da olsa ASAN xidmətin 1 və 5 saylı mərkəzlərindən alışlarını həyata keçirmələrini tövsiyə edirəm. Oktyabrın 17-dən sonra istiqrazlar ikinci mərhələdə bazarda satılmağa başlayacaq. Orada istiqrazların alınıb -satıla bildiyini, bazarın fəal olduğunu görəndən sonra əminəm ki, maraq daha da artacaq. Ancaq ilkin bazardan, yəni SOCAR-dan alanlar daha qazanclı çıxmış olacaqlar.

***- Oktyabrın 17-dən sonra istiqrazların satışı ilə bağlı şərtlər necə dəyişəcək?***

- Bu gün bizə müraciət edib 1000 dollarlıq istiqraz alanlar illik 5 faiz gəlir əldə edəcəklər və biz bunu illik olaraq hər 3 aydan bir ödəyəcəyik. Sifarişlər bitdikdən sonra oktyabrın 12-də vəsaitlərin yerləşdirilməsi aparılacaq, 14-də pullar əl dəyişdirəcək və istiqraz ala bilməyən pul sahiblərinə vəsaitləri geri qaytarılacaq. Oktyabrın 17-dən etibarən də istiqrazlar ikinci bazarda satılmağa başlayacaq. Həmin gündən etibarən əgər istiqrazlara tələb artınca, istiqrazların qiyməti artacaq. Bu zaman üzərindəki faiz göstəricisi 5 olsa da, qiyməti artdığı üçün onun gətirdiyi gəlir bir qədər aşağı düşəcək. Bu, istiqrazı birinci mərhələdə alanlar üçün keçərli deyil. İlk mərhələdə alanlar istiqrazın qiyməti qalxdığı üçün gəlir götürəcəklər, ikinci əl alanlar daha yüksək qiymətə aldıqları üçün qazanacaqları 5 faizi əvvəldən itirmiş olacaqlar. Biz hər zaman ən aşağı məbləği qoruyacağıq. Nə zaman vətəndaş istiqrazı gətirsə, 1000 dollara alacağıq. Bu mövzuda bazarda likvitliyi təmin edəcəyik. Ancaq şərtlərdə nə dəyişəcək sualınıza cavab olaraq deyim ki, qiyməti bir qədər bahalaşacaq. Avrobondlarla bu istiqrazlar arasındakı ən önəmli fərq odur ki, onlarda geri almaq təminatı vermirik. Avrobondları nağdılaşdırmaq kimi bir öhdəliyimiz yoxdur. Bazar özü avrobondları alıb satır. Əsas məsələ odur ki, onları dünyada hər kəs ala bilər. Bu istiqrazların isə ilk satışı, yəni oktyabrın 10-a qədər olan satış yalnız Azərbaycanın fiziki və hüquqi şəxslərinə tanınmış bir hüquqdur. İkinci bazarda artıq əcnəbilər də istiqraz ala biləcəklər. İkinci bazarda hər kəs ala bilər. İlkin mərhələ isə yalnız Azərbaycan vətəndaşlarına bu hüququ verdik ki, bu prosesdən ən çox faydalanan da məhz onlar olsun.

***- Ali bəy, ictimaiyyətdə belə bir sual da var ki, bu istiqraz məsələsindən kim daha qazanclı çıxacaq, dövlət yoxsa, vətəndaş?***

- Bu prosesdə SOCAR-dan çox vətəndaş qazanacaq. Çünki SOCAR-ın hazırda 5 il müddətinə nəzərdə tutulan 5 faizlik bu istiqrazların əvəzinə xaricdən 2 faizlik kredit almaq imkanı var. Ancaq SOCAR onu tərcih etmədi. Məqsəd odur ki, vətəndaş qazansın. Niyə vətəndaşın qazanması üçün çalışırıq? Çünki başlıca məqsədimiz kapital bazarının inkişafıdır. Bu, qısamüddətli bir proses deyil, uzunmüddətli bir yatırımdır. Nə zaman kapital bazarına etimad artsa, istiqrazlar, səhmlər bazarda gəlir gətirməyə başlasa, o zaman Azərbaycandakı sərmayə hərəkətə gəlib real iqtisadiyyata qatılmağa başlayacaq.

***- Yəni bu bir nəbz yoxlamasıdır?***

- Nəbz yoxlamasından da əlavə, bundan sonrakı dövrdə kapital bazarının inkişafı üçün atılmış ilk ən önəmli addımdır. Bunun üçün SOCAR fədakarlıq edir. Necə edir? 2-2,2 faizlə xaricdən kredit alıb layihələri investisiya qoymaq əvəzinə öz vətəndaşlarından 5 faizlə alır, bunu da layihələrə yatırmayacaq. Onu da deyim ki, hazırda bu vəsaitləri SOCAR layihələrə yatırmayacaq. SOCAR yenə fədakarlıq edərək bu istiqrazlardan gələn pulların bir qismini xaricdəki avrobondların satın alınması üçün istifadə edəcək, bir qismini də likvitlik üçün əlində saxlayacaq. Xaricdəki istiqrazların satın alınması isə o deməkdir ki, xaricdəki avrobond sahiblərinə ödəniləcək faizləri öz vətəndaşlarımıza ödəyəcəyik. SOCAR-ın burada yüksək faizlə borclanmasının səbəbi odur ki, vətəndaşlar qazansın. Bu prosesdən vətəndaş da qazanacaq, SOCAR da qazanacaq, amma ən çox ölkə qazanacaq. Kapital bazarını yaşatmalıyıq. Türkiyə bunu bacardı və uzun bir yol keçdik. Niyə Azərbaycan qazanmasın? Azərbaycanın buna ehtiyacı var. Mən ömrünün 30 ilini bu sahədə keçirmiş bir insan olaraq deyirəm ki, Azərbaycanda bu imkanlar, bu potensial var. Lakin kapital bazarının daha böyük olmasına ehtiyac duyulur. Ölkədə hərəkətli bir kapital bazarının olması hər kəsə faydalı olacaq.

***- Ali bəy, Azərbaycan vətəndaşının "ağzının yandığı" bir layihə oldu - özəlləşmə çekləri. Bu layihə başlayanda insanlar əmlakını, avtomobilini satıb o çeklərə yatırdı. Çünki sürətlə bahalaşırdı. Lakin sonradan geriyə doğru bir proses oldu. Bu layihə vətəndaşları ziyana saldı. Bu baxımdan istiqrazların taleyi necə ola bilər? Ümumiyyətlə, bu müqayisəni uyğun hesab edirsinizmi?***

- Bu müqayisəni çox da uyğun hesab etmirəm. Çünki səhm və istiqraz arasında çox sadə bir fərq var. Səhm odur ki, siz bir şirkətə ortaq olursunuz, o şirkətin sərmayədarı olursunuz, faydasına və zərərinə ortaqsınız. Ancaq istiqraz fərqlidir. İstiqraz odur ki, siz sadəcə o şirkətə borc verirsiniz. O şirkət sizdən aldığı borca qarşı faiz ödəyir, üstəgəl də əsas məbləği sonda geri qaytarır. Nə qədər pul qazanırsa qazansın, bunun sizə aidiyyatı yoxdur. Sadəcə sizə vəd etdiyi faizi ödəyir. Ancaq səhm sahibinə bütün qazancından pay verir. Özəlləşdirmə çekləri səhmə bənzəyən bir qiymətli kağızdır. Sizin bu xoş olmayan təcrübənizdən də xəbərdaram. Səbəb odur ki, həmin dövrdə vaxt bir qədər doğru yönəldilməyib. Üstəgəl, kapital bazarının infrastrukturu olmadığı üçün çox acı bir təcrübənin qurbanı olmusunuz. Bu dəfə sistem fərqlidir. Bizim fəaliyyətimiz daha təşkilatlanmış və daha planlı şəkildədir. Mərkəzi Bank, Maliyyə Bazarlarına Nəzarət Palatası, birja birlikdə çox böyük səy göstərdi. Əhalinin çox rahat istifadə edə biləcəyi bir sistem qurduq. Mən keçmişdəki olaya bənzər bir təcrübənin yaşanacağına qətiyyən inanmıram. Səbəbi də odur ki, 100 milyon dollarlıq istiqraz çıxarılıb. Müddəti də 2021-ci ilə qədərdir. SOCAR-ın daha yaxın müddətli olan avrobondları 2023-cü ilə qədərdir, uzun müddətli avrobondlar isə 2030-cu ilə qədərdir. Xaricilərin güvəndiyi bir şirkətə yerli vətəndaşlar da rahatlıqla inana bilər. SOCAR üçün yerli vətəndaşlar xaricilərdən daha öndədir. Əgər şirkətin bütün işləri pis gedərsə, bütün dünyanın kapital bazarında qayda belədir ki, ilk növbədə istiqraz sahiblərinin pulu ödənilməlidir, daha sonra səhmdarların. Bu səbəbdən burada elə bir halın yaşanacağı gündəmdə deyil, SOCAR-ın belə bir problemi yoxdur. İstənilən zaman SOCAR-ın istiqrazları əsas məbləğlə və faizi ilə birgə zamanında ödənəcək. SOCAR Azərbaycan iqtisadiyyatının 50 faizindən çoxuna fayda verir, ölkə ixracatının 80 faizinə sahib olan bir şirkətdir. Bu səbəbdən hər hansı problemlə qarşılaşma ehtimalının sıfıra bərabər olduğunu hesab edirəm.

***- Ali bəy, ən çox müzakirə olunan bir sual da budur ki, bu gün istiqraz alan insan onu nə zaman nağd şəkildə geri ala bilər? Bunun üçün neçə gün zaman lazımdır və istiqraz sahibi hansı prosedurları keçməlidir?***

- ...

*(Davamı növbəti sayımızda)*

**❑ Azər AYXAN**
**Nərgiz LİFTİYEVA**
**Fotolar Məğrur MƏRDİNDİR**

YENİ MÜSAVAT
N 221 (6542) 7 oktyabr 2016



# İlqar Məmmədov noyabrda azadlığa buraxıla bilər

## REAL sədrinin gözlənilən məhkəməsinin zamanı məlum olub; Avropa Məhkəməsi də onun işi üzrə kommunikasiya mərhələsinə başlayıb

**REAL Hərəkatının həbsdəki sədri İlqar Məmmədov və Müsavat başqanının müavini Tofiq Yaqublunun kassasiya şikayətləri üzrə Ali Məhkəmədə keçiriləcək proseslərin zamanı məlum olub. Hakim Əli Seyfəliyevin sədrlik edəcəyi məhkəmə prosesi noyabrın 18-ə təyin olunub.**

Kassasiya şikayətində həmin şəxslər barədə bəraət hökmünün çıxarılması istənilir.

Məhkəmə prosesinin zamanı məlum olandan sonra REAL sədri barəsində müxtəlif iddialar meydana çıxıb. Əsas iddialardan biri onun noyabrda azadlığa buraxılacağı ilə bağlıdır. İ.Məmmədovun azad ediləcəyinə olan ümidlərin artmasına əsas səbəb də, bu ilin əvvəllərindən başlayaraq, Ali Məhkəmənin “ədalətli femida” rolunda çıxış etməsidir. Təsadüfi deyil ki, bu qurumunun qərarı ilə Avropanın əsas diqqətində olan hüquq müdafiəçisi İntiqam Əliyev və araşdırmaçı jurnalist Xədicə İsmayıl azad olunub, oktyabrın 4-də amnistiya ilə azadlığa çıxan Müsavat başqanının müavini Fərəc Kərimlinin cəzası 6 il yarımdan 3 ilə endirilib, cəbhəçi gənc Elvin Abdullayevin isə həbs müddəti 6 ildən 2 il 6 aya qədər azaldılıb. Bu amillər Ali Məhkəmənin REAL sədri barəsində müsbət qərar çıxaracağına olan inamı daha da artırır. Bundan əlavə, referendumdan sonra Azərbaycan hakimiyyətinin bütün sahələrdə olduğu kimi, siyasi sahədə aparacağı islahatlara İ.Məmmədovun azad edilməsinin də daxil olacağı deyilir. Beynəlxalq təşkilatların REAL sədrini birmənalı şəkildə vicdan məhbusu kimi tanımalarının və barəsində çıxardığı qərarların onun məhbəs həyatı ilə vidalaşacağına təsir edəcəyi istisna olunmur. Avropa İnsan Haqları Məhkəməsi kimi nüfuzlu beynəlxalq qurum dəfələrlə İ.Məmmədovun azad edilməsi tələbi ilə qərar qəbul edib. Günlər öncə isə Avropa Məhkəməsi REAL sədri barəsində bu ilin aprelində Şəki Apelyasiya Məhkəməsinin çıxardığı qərar üzrə kommunikasiya başlayıb.



**T.Yaqublu məhkəmənin bəraət hökmü çıxaracağına inanmır:** “Azərbaycan məhkəmələrinin ənənəvi qərarlarına əsaslanaraq, bəraət hökmünün veriləcəyinə inanmıram. Sadəcə işi bu günlərə qədər ona uzadıblar ki, şikayətlər Avropa Məhkəməsinə gec çatsın. Amma müəyyən gözləntilərim var, o da İlqar Məmmədovla bağlıdır. Düşünürəm ki, hakimiyyət onun azad etməlidir. Digər siyasi məhbuslar barədə Ali Məhkəmənin qərarları oldu. Onları tam olmasa da, şərti cəza ilə azad etdilər. Belə bir hal İlqar Məmmədova tətbiq edilə bilər. Mümkün olan haldır. Avropa İnsan Haqları Məhkəməsinin onunla bağlı qərarı var. Üstəlik Avropa Şurasının Nazirlər Kabinetinin 7 bəyanatı var. Sonuncu kifayət qədər sərtdir. Orada 46.1-ci bəndinə əsaslanaraq, məhkəmənin qərarlarını icra etmədiyinə görə Azərbaycana qarşı sanksiyaların tətbiq ediləbiləcəyini xatırlatmışdılar. Hakimiyyət ən geci noyabrın 18-də İlqar Məmmədov barəsində müsbət qərar verməlidir. Onun kimi işıqlı bir ziyalının həbsdə qalması çox üzücüdür”.

İ.Məmmədovun vəkili Fuad Ağayev məhkəmənin zamanı barədə xəbər verərək, hüquqlarını müdafiə etdiyi şəxsin azad olunub-olunmayacağı barədə məlumatsız olduğunu söylədi.

**Vicdan məhbusunun həyat yoldaşı Vəfa Məmmədova** hər şeyin məhkəmədə bəlli olacağını qeyd etdi: “Ümid həmişə var. Amma nələrin olacağını yalnız məhkəmə günü görəcəyik. İndidən nəsə demək çətindir. Ümid edirəm ki, yaxşı olar. Onu da bildirim ki, İlqar barəsində aprel 29-da Şəki Apelyasiya Məhkəməsinin çıxardığı qərardan verilən şikayət üzrə artıq Avropa Məhkəməsi kommunikasiya mərhələsinə başlayıb. Bu da çox müsbət haldır”.

**REAL-ın İdarə Heyətinin üzvü Azər Qasımlı** İ.Məmmədovla bağlı ölkə daxilində çoxsaylı məhkəmə proseslərin indiyə qədər də olduğunu söylədi: “Təkcə Şəki Apelyasiya Məhkəməsində İlqar bəyin iki dəfə prosesi olub. Ali Məhkəmədə də indiyə qədər bir dəfə məhkəməsi olub. Yəni ölkə daxilində onunla bağlı məhkəmələr çox olub. Avropa Məhkəməsinin qərarları var. Bu məhkəmələrdən böyük gözləntilərimiz yoxdur. Biz öz yolumuzla gedirik. Əlbəttə, onun həbsdən çıxması çox yaxşı olardı. Amma hər halda biz İlqar Məmmədovu buraxmayacaqlar kimi davranırıq. İstərdik ki, hakimiyyət səhvini düzəldib, onu həbsdən azad etsin”.

**Xatırladaq ki, İ.Məmmədov 2013-cü ilin yanvarında İsmayıllı rayonundakı hadisələrə görə həbs olunub, 7 il müddətinə azadlıqdan məhrum edilib. Onunla birlikdə həbs edilən və eyni maddələrlə ittiham olunan Tofiq Yaqublu bu ilin martındakı əfv sərəncamı ilə azadlığa buraxılsa da, REAL sədri hələ də məhbəsdədir.**

❑ Cavanşir ABBASLI

# Cahangir Hacıyev uzunmüddətli həbsə girir - özünü Eldar Mahmudova qurban verirmi?

## Beynəlxalq Bankın sabiq sədrinin maliyyə nazirini və digər məmurları hədəfə almasının pərdəarxası məqamları

**Beynəlxalq Bankın sabiq sədri Cahangir Hacıyevin məhkəmə prosesi yekunlaşmaq üzrədir. Oktyabrın 10-da keçiriləcək məhkəmə prosesində ona və bu iş üzrə təqsirləndirilən digər şəxslərə hökm oxunacağı gözlənilir. C.Hacıyevin ağır cəza alacağı artıq dəqiqləşib. Belə ki, dövlət ittihamçısı onun 17 il müddətində azadlıqdan məhrum edilməsini istəyib.**

Onun həbsindən sonra ortaya çıxan faktlar ləğv edilmiş MTN-in rəhbəri olmuş, C.Hacıyevin qudası Eldar Mahmudovun da qandallanacağına dair fikir formalaşdırdı. Çünki bu cinayətlər birbaşa Eldar Mahmudova arxalanaraq törədilib. Amma Hacıyev nəinki istintaqda, məhkəmə proseslərində belə E.Mahmudovun əleyhinə bir dəfə də olsun danışmadı. Hətta istiqaməti dəyişmək üçün bəzi iri ranqlı məmurları hədəfə aldı.

Onun həbsdə olduğu 10 ay ərzində özünü təmkinli aparmasının, məhkəmədəki davranışlarının əsassız olmadığı qeyd olunur. Hacıyevin prokurorun istədiyi ağır cəzaya baxmayaraq, uzun müddət həbsdə qalmayacağı deyilir. Hətta E.Mahmudovun onu həbsdən çıxaracağı ilə bağlı sabiq bankirə vəd verməsi iddiaları da var. Hacıyevin həbs olunduqdan sonrakı davranışlarının məhz bunlardan qaynaqlandığı bildirilir.

C.Hacıyevin davranışlarının sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevin 2005-ci ildə həbs olunarkən sərgilədiyi mövqe ilə oxşarlıq təşkil etdiyi söylənilir. F.Əliyev də təmkinli olmuş, hakimiyyətin ünvanına tənqidlər səsləndirməmiş və bunun nəticəsində 8 il həbsdə qaldıqdan sonra azad olunmuşdu. Amma onunla birlikdə eyni proseslərə görə həbs edilən sabiq səhiyyə naziri Əli İnsanov nəinki hələ də həbsdədir, hətta onu növbəti ağır cəzalar da gözləyir. Çünki İnsanov həbs olunduqdan sonra təmkinini qoruya bilməmiş, hakimiyyətin ünvanına sərt tənqidlər səsləndirmişdi. Bütün bunları C.Hacıyev bilməmiş deyil...





### İlham İsmayıl: “Bəzi məsələlər bizim bildiyimiz kimi deyil, hadisələr hüquqi müstəvidə baş vermir”

**Sabiq MTN polkovniki İlham İsmayıl** bildirdi ki, bankirlə bağlı səslənən iddiaların hər biri doğru ola bilər: “Bu məsələlərdən danışmaq olduqca çətindir. Çünki gedən proseslər gizlidir, bunu cəmiyyət görə bilmir. Əgər Eldar Mahmudov istintaqa cəlb olunsaydı, ardınca həbs edilsəydi, ağır cəzaya məruz qalsaydı, o zaman deyərdik ki, ciddi işlər gedir. Burada isə sanki "razborka" gedir. Nə üçün Eldar Mahmudovun əməlləri, cinayətləri Cahangir Hacıyevə yüklənməlidir? Onun haqqında 17 il həbs istənilməlidir? Bu normaldırmı? Yəni bu suallar ətrafında danışmaq olar və belə sualların meydana çıxması normaldır. Eldar Mahmudov məsələsi hələ də müəmmalı olaraq qalır. Onunla bağlı müxtəlif şayiələr var. Guya sabiq nazirin əlində şantaj xarakterli materiallar, faktlar var. Bunlar həm inandırıcı görünür, həm də yox. Hər halda, bəzi məsələlər bizim bildiyimiz kimi deyil, hadisələr hüquqi müstəvidə baş vermir. Niyə Eldar Mahmudov öz qohumunu qoruya bilmədi? Çünki onun cinayətləri konkret ortadadır. Eldar Mahmudov məsələsinə hansı yöndən qiymət versək, ortaya yeni-yeni suallar çıxacaq. Mahmudovun arxasında elə bir qaranlıq fon var ki, bunu dar çərçivədə yalnız bir neçə nəfər bilir. Cəmiyyət də yalnız suallar qarşısında qalır. Mətbuat da bu suallar qarşısında dəfələrlə müraciət edir ki, Mahmudov niyə həbs edilmir? Məsələlər qaranlıqdır deyə konkret danışmaq çətindir. Hər şey ortadadır, amma sabiq nazir həbs edilmir. Ona görə son söz demək çətindir. Bu məsələnin çözülməməsi nə hakimiyyət, nə siyasi dairələr, nə də hüquq mühafizə orqanları üçün başucalığı gətirmir. Buna son verilməli, ən azından aydınlıq gətirilməlidir”.

**Sabiq təhlükəsizlik zabiti E.Mahmudovun özü azadlıqda ikən qudasını qoruya bilməməsini belə izah etdi:** “Mahmudov özünü qorudu, amma Hacıyevdə söhbət çox incə məsələdən getdi, pul məsələsindən. O pulun ortalıqda olmaması, ölkənin iqtisadi böhrana qədəm qoyandan sonra bu məsələlərin ortaya çıxması burada ciddi rol oynadı. Ölkə krizisə girəndən sonra bu məsələlərin üstü açıldı. Aydın məsələdir ki, bu incə detal boşuna buraxılası deyildi. Burada əsas olan odur ki, Eldar Mahmudov hələ də azadlıqdadır. Cahangir Hacıyevə 17 il həbs cəzası veriləbilər, amma kimsə bilmir ki, o nə qədər həbsdə qalacaq. Bunu şahidi olduğumuz hadisələrə görə deyirik”.

**İ.İsmayıl sabiq nazirin C.Hacıyevə vəd verə biləcəyini də istisna saymadı:** “Mahmudovun onu həbsdən azad edəcəyi ilə bağlı Cahangir Hacıyevə vəd verdiyi iddiaları bir az real görünür. Amma konkret də demək olmaz. Çünki falçı deyilik. Hacıyevin nazirlərin, məmurların adlarını məhkəmədə çəkməsi işini yüngünləşdirmək istəməsi ilə bağlıdır. Üzərinə daha çox hücumların olmaması üçün bunları edə bilər. Bu hüquqi müdafiədən irəli gələn psixoloji addımlardır. Başqa səbəblər yoxdur. Onun bir sözü oldu ki, mən yazılmış və yazılmamış qanunlara əməl etmişəm. Bu söz çox məsələlərə yol açdı. Sanki o nəyəsə arxayındır. 17 il iş istənilməsini eşidərkən verdiyi reaksiya onu göstərdi ki, məsələnin görünməyən tərəfləri var”.

**Xatırladaq ki, C.Hacıyev ötən ilin dekabrında həbs edilib. O, səlahiyyətlərindən sui-istifadə edərək, dövlət pulunun talan edilməsində, müvafiq sənədlər olmadan yaxın ətrafına milyonlarla dollar məbləğində kreditlər ayırmaqda, mənimsəmə və israfçılıqda, özünə yaxın oliqarxların “çirkli pullar”ının yuyulmasında və digər cinayətlərdə ittiham olunur.**

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 221 (6542) 7 oktyabr 2016

# Xocalı cəlladı müxalifətə keçir, yoxsa Moskvaya vəzifəyə gedir?

## 14 oktyabrda Sergey Lavrov başda olmaqla İrəvana böyük heyət gedir, KTMT-yə rəhbərlik Ermənistanın əlinə keçir, Bakı reaksiya verəcəkmi?

**“Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyanın işdən azad edilməsi gözlənilən bir məsələ idi. Bu, həm Azərbaycan ordusunun aprel ayında əldə etdiyi üstünlüklə bağlıdır. Eyni zamanda Ohanyanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) rotasiya ilə Ermənistana veriləcək baş katiblik vəzifəsində namizədliyi ilə də əlaqəli ola bilər”.**

**Bu fikirləri politoloq Arzu Nağıyev “Yeni Müsavat”a açıqlaması zamanı bildirdi.**

Qeyd edək ki, Ermənistanın Xocalı qatili olan sabiq müdafiə nazirinin müxalifət düşərgəsinə keçəcəyinə dair ilginc məlumatlar yayılıb. “Qraparak” qəzeti iddia edir ki, Ohanyan Prezident Aparatının rəhbərinin müavini Viktor Dallakyanın yaradacağı “Şrdjadardz” partiyasına rəhbərlik edəcək. (Azvision.az ttp://www.azvision.az/) “Qraparak” yazır ki, hakim Respublika Partiyası hadisələrin bu cür inkişafına inanmır, lakin partiyadan Ohanyanın Sərkisyana acıqlı olduğu bildirilib. “Dallakyanın Prezident Aparatının yeni rəhbərinin təqdimat mərasimində iştirak etməsinə baxmayaraq, Seyran Ohanyanın razılıq verəcəyi təqdirdə, o fikirləşmədən hakim komanda və partiyaya qarşı çıxacaq” deyə, yazıda vurğulanır. Nəşrin məlumatına görə, “Şrdjadardz” partiyası Rusiya mənbələrindən maliyyələşəcək.

**Ancaq A.Nağıyev S.Ohanyanın müxalifətə keçəcəyi barədə Ermənistanda səslənən fikirləri ciddi saymır:** “Bu, o qədər də inandırıcı görünmür: ”Əgər onun elektoratı hərbçilərdən ibarət olsaydı, nə isə edə bilərdi. Məlumdur ki, Ermənistan ordusunda narazılıqlar özünün pik nöqtəsinə məhz Ohanyanın vaxtında çatıb. Deməli, hətta müxalifətə belə keçərsə, deməli, bu, Sərkisyan tərəfindən düşünülən siyasi gedişdir. Bu mənada onun KTMT-yə getməsi daha çox ehtimal olunur".

**A.Nağıyev əlavə etdi ki, hazırda rotasiya ilə həmin vəzifə əlifba sırasında Ermənistana məxsus olmalıdır və ermənilər də öz namizədlərini verməlidirlər:** “Erməni mənbələri bununla bağlı susurlar. Çünki əsas təyinat məhz Rusiya tərəfindən edilməlidir. Düşünürəm ki, Ohanyan həm Rusiyanı, həm də elə erməniləri bu vəzifədə qane edəcək namizəddir. Məlumdur ki, o, Dağlıq Qarabağ ərazisində cinayətlər törətmiş səhra komandiridir və Sərkisyanın komandasında ən yaxın şəxslərdən biridir. Bundan başqa, Rusiyanın Ermənistan ərazisində olan 102 saylı bazası ilə əlaqələndirici rolunu oynayıb və regionun əməliyyat şəraitini bilir”.



Xatırladaq ki, KTMT-nin növbəti toplantısı oktyabrın 14-də keçiriləcək və həmin iclasda Ermənistan nümayəndəsi qurumun baş katibi vəzifəsinə təyin olunacaq. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv ölkələrin xarici işlər nazirlərinin oktyabrın 14-də İrəvanda keçiriləcək toplantısında Dağlıq Qarabağ münaqişəsinin həllinin müzakirə olunması mümkündür. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin xüsusi nümayəndəsi Mariya Zaxarova bildirib. O, toplantıda Dağlıq Qarabağ münaqişəsinə dair ayrıca görüşün keçirilməyəcəyini, münaqişənin nizamlanması yollarının toplantı çərçivəsində müzakirəsinin mümkün olduğunu söyləyib.

**Diqqətçəkən odur ki, oktyabrın 14-də Rusiya xarici işlər naziri Sergey Lavrov da İrəvana səfər edəcək.** Mariya Zaxarova bildirib ki, nazir Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzv ölkələrin xarici işlər nazirlərinin toplantısında iştirak edəcək. Rusiya XİN sözçüsü toplantıda beynəlxalq terrorçuluğa qarşı birgə mübarizə, hərbi əməkdaşlığın inkişafı və digər məsələlərin müzakirə olunacağını qeyd edib. Deməli, “İsgəndər” “hədiyyəsindən” sonra KTMT-nin baş katibliyi də “təntənəli” şəkildə işğalçıya təqdim olunacaq. Bu postu isə Moskvanın adamı, S.Sərkisyanın ən qorxulu rəqibi Ohanyanın, 366-cı motoatıcı alayın tərkibində olaraq Xocalı soyqırımını törətmiş cəlladın tutacağı az şübhə doğurur. Bəzi ekspertlərə görə, istənilən halda Bakının bu təyinatı sükutla qarşılaması yaxşı görünmür. Ən azı Rusiya ilə qapalı müzakirələrdə məsələyə etiraz bildirmək olardı...

❑ **Cavid TURAN**

# Qafqazda silahlanma yarışı böyük fəlakətlər vəd edir

## Günahkar Ermənistandır; **hərbi ekspert:** “Regiondakı silahlar bir gün işə düşə və böyük faciələr baş verə bilər”

**Aprel ayındakı 4 günlük müharibədə ağır itkilər verən işğalçı Ermənistan kütləvi silahlanmaya start verib. Hər halda onun Rusiyadan “İsgəndər” raket komplekslərini alması və onu İrəvanda keçirilən hərbi paradda nümayiş etdirməsi işğalçı ölkənin danışıqlarda Azərbaycandan üstün mövqedə dayanmaq istəyindən irəli gəlir.**



Doğrudur, Azərbaycandakı müşahidəçilər hesab edir ki, İrəvan atəş dairəsi 500 kilometr olan son “İsgəndər-M” sistemi yox, daha qısa məsafəli (280-300 kilometr) “İsgəndər-E” kompleksilə təchiz edilib. Eyni zamanda Ermənistandakı 21 sentyabr paradından sonra Azərbaycanın müdafiə naziri Zakir Həsənov bəyan edib ki, yarana biləcək istənilən hərbi təhdid ehtimalını nəzərə alaraq Ermənistan ərazisindəki, hədəflərin məhv edilməsinə hazır olmaqla bağlı tapşırıqlar verib.

**Nazir xüsusilə vurğulayıb ki, Silahlı Qüvvələrin sərəncamında olan raket-artilleriya sistemləri bu tapşırığı yerinə yetirməyə imkan verir.** Bunun ardınca Naxçıvandakı Əlahiddə Qoşun bölmələri hərbi təlim keçərək Ermənistanın dərinliklərinə zərbələr endirilməsini məşq ediblər. Eyni zamanda Azərbaycan işğalçının təhdidlərinin qarşısında yeni silahların alınması istiqamətində də hərəkətə keçib.

Ermənistanın Rusiyadan aldığı “İsgəndər” raket kompleksini nümayiş etdirməsindən sonra Azərbaycanın da İsraildən “Dəmir günbəz” havadan müdafiə sistemi alması barədə məlumatlar yayılıb. Düzdür, yəhudi əsilli millət vəkili Yevda Abramovun verdiyi bu açıqlama İrəvanda şübhə ilə qarşılanıb. İsrailin Müdafiə Nazirliyi məlumatı şərh etməkdən imtina edib. Bu arada isə “Dəmir günbəz” sisteminin İsgəndər raketlərinə qarşı effektiv olmasına dair suallar ortaya çıxıb.

**Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Artsrun Hovhannisyan isə hesab edir ki, Azərbaycan “Dəmir günbəz” sistemini ala bilməz, çünki Rusiya ilə müttəfiqdir.** “Söhbət ”Dəmir günbəz" raketdən müdafiə sisteminin “İsgəndər” raketini tutmaq imkanından gedir. Artıq izah olunub ki, bu kimi sistem Azərbaycanda peyda ola bilməz, lakin əgər bu baş tutsa da, heç nə edə bilməz", - Artsrun Hovhannisyan Facebook hesabında yazıb.

**İsrail raket komplekslərinin Bakıya satılması haqqında məlumatlar “istər siyasi, istər hərbi-texniki xarakterli şübhələr doğurur”, siyasətşünaslıq üzrə doktor, İrəvandakı Qafqaz İnstitutunun direktor müavini Sergey Minasyan bildirir.** “İsrail tərəfindən belə bir sistemin Rusiya və İranla sıx əlaqədə olan Azərbaycan kimi ölkəyə verilməsini təsəvvür etmək çətindir” - Minasyan BBC Azərbaycancanın İrəvan müxbirinə deyib. Lakin Yevda Abramov Azərbaycanın İsrail raket kompleksinə sahib olduğunu israrla təkrar edir.

“Mən 12 ildir ki, parlamentdəyəm. Bu iki ölkə arasında dostluq qrupunun rəhbəriyəm. Mən bu işin içindəyən, xəbərdaram” - deputat deyib. “Mən İsraillə daima əlaqədəyəm və bilirəm ki, Azərbaycanın hərbi arsenalı Qafqazda ən güclü hücum və taktik silahlara malikdir”.

**Bu arada Amerikanın “Global Fire Power” araşdırma mərkəzi dünya ən güclü ordularının yeni reytinqini açıqlayıb.** “Global Fire Power” araşdırma zamanı əsas 50 faktoru nəzərə alıb. Burda müdafiə sahəsinə ayrılan vəsaitin məbləği, şəxsi heyətin, limanın, ordunun və tankların sayı, eyni zamanda maliyyə ehtiyat və s. meyarlar önəm daşıyır.

**Siyahıda 126 ölkə yer alıb.** İlk onluqda ABŞ, Rusiya, Çin, Hindistan, Fransa, İngiltərə, Yaponiya, Türkiyə, Almaniya, İtaliya yer alıb. Dünyanın ən güclü orduları arasında Azərbaycan da daxil edilib. Ölkəmiz siyahıda 60-cı yerdə qərarlaşıb. Düşmən Ermənistan isə reytinq siyahısında bizdən 34 pillə geridə - 94-cü yerdədir.

Ümumilikdə görünən budur ki, Qafqaz bölgəsi nəhəng bir silah arsenalına çevrilib və faktiki olaraq kvota pozulub. Azərbaycan təcavüzə məruz qalan ölkə kimi yeni silahlar almağa məcburdur. Üstəlik, ölkəmiz bu silahları almaq üçün böyük vəsaitlərindən keçməli olur. Lakin işğalçı Ermənistan Rusiyadan hədiyyə olaraq yeni silahlar alamaqdadır və artıq bu, “hədiyyə”lər raket-komplekslərini də əhatə edir. Bu duruma beynəlxalq nəzarətin olmaması isə sonda bölgədə böyük fəlakətlərin baş verməsinə gətiib çıxara bilər.

**Hərbi ekspert Azad İsazadə** “Yeni Müsavat”a bildirdi ki, əvvəllər kvota mövcud olub: “Ancaq 2008-ci ildə baş verən Gürcüstan hadisələrindən sonra Rusiya Avropada Adi Silahlara Nəzarət Müqaviləsindən çıxdığını bəyan etdi və o vaxtdan kvotalara nəzarət etməyin mənası qalmadı. İndi də vəziyyətə ciddi təsir edən qurum yoxdur. Cənub-Cinah müqaviləsi çərçivəsində bir dəfə olmayıb ki, hansısa dövlət kvotanı yerinə yetirsin. Hər bir ölkə öz tərəfindən səbəb göstərib kvotanı pozduğunu bəyan edir. Odur ki, kvota heç vaxt yerinə yetirilmir”.

**A.İsazadənin sözlərinə görə, Stokholm Hərbi Araşdırma İnstitutu silahlanma barədə hər il məlumat hazırlayıb yayır: “Ermənistan ərazisinə daxil olan silahlar qeydiyyata alınır, lakin onun harada yerləşdirilməsi açıq qalır.** Azərbaycanla bağlı da məlumatlar əksini tapır. Amma Azərbaycan beynəlxalq müqavilələrə əsaslanır, rəsmi olaraq, şəffaf şəkildə ikitərəfli müqavilələri açıqlayır. Ermənistan isə qeyr-rəsmi şəkildə silahlar əldə edir. Yeni bu məsələ ilə maraqlanan qurumlar var, amma mətbuata açıqlama vermirlər və hay-küy salmadan araşdırmaları davam etdirirlər. Ümumilikdə isə təbii ki, sürətlə silahlanma nəticəsində regiondakı silahlar bir gün işə düşə və böyük fəlakətlər baş verə bilər”.

❑ **Cavid TURAN**



# Dəstəyin formalaşması

Zamin HACI
zaminhaci@gmail.com

**Hökumət həmişə deyir ki, bizdə cinayətlərin açılma faizi bütün dünyadan yuxarı rəqəmdir. Sabitlik var, qurd-quzu ilə otlayır, millət də iqtidarın ətrafında sıx birləşib. Bəs nədən birdən-birə bu polisə ictimai dəstək adlı qurumu yaratdılar? Özlərini təkzib eləyirlər.**

Əstəgfürullah, mənim sabitliyə şübhəm yoxdur, üstəlik, siyasi dustaqlardan Fərəc Kərimli təzəcə azadlığa çıxıb və türmədə azı bir boş çarpayı qalır. Sadəcə, elə alınır ki, indiyə qədər ictimaiyyət polisə dəstək vermirmiş. Forma alandan sonra verib. Bir növ, dəstək formalaşıbdır.

Bir sual da ortaya çıxır: indi kimdəsə bu formadan olmasa, o, polisə ictimai dəstək verə bilərmi? Qanunsuz hal sayılmazmı? Misal üçün, Səyavuş Novruzov və Zahid Oruc asudə vaxtlarında belə formada niyə şəhərə çıxmasın?

Deyirlər bu gənclər polisə ictimai dəstək verəndən sonra polisə təzə işçi lazım olanda üstünlük bunlarda olacaqdır. Əla. Bəs biz bu sistemi başqa dövlət orqanlarında niyə tətbiq etməyək? Niyə "Müəllimə İctimai Dəstək", "Prokurora İctimai Dəstək", canım sənə desin, "Orduya İctimai Dəstək" qurumları yaradılmasın? Sonra həmin üzvlər müəllim, prokuror, general olanda üstünlük qazansın.

Hamısına uyğun formalar, geyimlər verilsin. Dur məktəbin qabağında, dərsdən qaçan uşaqları tut, zəncirlə, apar ver direktora. Gördün prokuror bekarçılıqdan milçək tutur, nəsə şikayət hazırla, qoy camaat işləsin. Gördün müdafiə naziri çoxlu şəkil çəkdirir, sən də instaqramı şəkillə doldur, düşmənin gözü çıxsın. Getdin gördün at, neynirsən şokolad... Üzr istəyirəm, bu nəsə tamam ayrı tema idi, səhvən bu yazıya düşdü. Texniki qüsurdur. Müvəqqəti narahatçılığa görə üzr istəyirik, imza əbədi icra başçısı Hacıbala müəllim. Vəssalam. Yazı bitdi.

Zarafat edirəm, bizdə bəxt hardandır belə qısa yazı ilə canımızı qurtaraq? Son vaxtlarda bu jurnalistika məsələsində Mətbuat Şurasına ciddi rəqiblərin yetişməsi göz önündədir. Bəlkə də Ziyafət Əsgərov təzəlikcə deputatxanada Əflatun Amaşovu bir növ danlayaraq "İnternet haqda çoxdan danışmırsınız" deyərkən buna işarə vururdu. Bərdənin icra hakimi telejurnalisti işdən qovdurub, başqa bir telekanalizasiyanı isə rəhmətlik Arabul müəllim demişkən, "dibindən kəsdilər". Hələ bu harasıdır, bir hökumət agentliyi başqa hökumət agentliyindən işçi çıxartdırıbdır. Belə olmaz, Əflatun müəllim. Axı media aləmini tənzimləmək işinə siz baxırdınız. Bazar əldən gedir. Jurnalistikanı özbaşına buraxsan, kəfəni batırar.

Bir az yer qalıb, onu da müxalifətə həsr eləyək, deməsinlər iqtidarın adamıdır, ancaq iqtidardan yazır.

Gürcüstanda parlament seçkiləri yaxınlaşır, orda Mixail Saakaşvilinin partiyası uğurla irəliləyir, iki gün qabaq Tiflisdə bir mitinq keçirtdilər ki, yalan olmasın, bəlkə mitinqin başı Batumda olanda quyruğu Sınıq körpüyə dəyirdi. Özü də guya müxalifətdir. Sən təsəvvür elə, bizim İsa Qəmbərlə Əli Kərimlinin üstündə bu Mişa bir dəfə hakimiyyətə (Tiflis meri), bir dəfə müxalifətə keçdi, sonra yenə hakimiyyətə gəldi (Gürcüstan prezidenti), indi müxalifətdir, Ukraynada işləyir, ancaq partiyası təzədən hakimiyyətə gəlmək üzrədir. Biz isə 23 ildir süni AXC-Müsavat qarşıdurması izləməkdən bulimiya olmuşuq. Bəlkə bizim müxalifət gedib Saakaşvilinin partiyasına yazılsın, hakimiyyətə gəlməyin sirlərini öyrənsinlər?

İntəhası, öyrənməyə qalanda gərək Gürcüstanda yaşayan azərbaycanlılar çoxdan öyrənəydilər, gəlib bizə başa salaydılar. Bu sahədə isə bir nəticə yoxdur. Lətifəsi bizdən uzaq, bu temada bir məsəl var, deyir baxmaqla öyrənmək olsaydı, itlər qəssab olardı.

**"Həqiqət üçün ən pis zəmanə, hər şeyin həqiqət ola biləcəyi zəmanədir" - bunu isə polyak Stanislav Jeji Lets demişdir.**

# Sülh prosesi yenidən dalana dirəndi

**Rusiya prezidenti Vladimir Putin gələn həftə Türkiyəyə səfər edəcək. Xəbər verildiyi kimi, İstanbulda 9-13 oktyabr tarixində keçiriləcək Beynəlxalq Energetika Konqresi çərçivəsində o, türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla görüşəcək.**




## "...Azərbaycan Ermənistanı Yer üzündən siləcək!.." - işğalçıya müharibə xəbərdarlığı

### Aprel döyüşləri zamanı düşmənin "İsgəndər" raket kompleksindən istifadə etməməsinin əsas səbəbi üzə çıxır; rusiyalı analitik: "Moskva ermənilərə böyük bir zınqırovlu oyuncaq bağışlayıb, qoy oynatsınlar..."

Bu səfər və görüş Azərbaycan-Rusiya münasibətləri kontekstində də əhəmiyyətli hesab edilir. Məsələn, **Lomonosov adına Moskva Dövlət Universitetinin professoru, siyasi elmlər doktoru Andrey Manoylo** Day.az-a açıqlamasında deyib ki, Ərdoğan-Putin görüşü Azərbaycanın Rusiya ilə bundan sonrakı əlaqələrinə də pozitiv təsir edəcək. Yada salaq ki, Türkiyə lideri bu ilin iyulunda Sank-Peterburqa etdiyi səfər zamanı Ankara-Bakı-Moskva əməkdaşlıq formatını təklif eləmişdi.

Lakin hazırda Bakı və Moskva arasında üzə vurulmasa da, etiraf olunmasa da, Ermənistandakı "İsgəndər" raket komplekslərindən dolayı gizli-açıq bir sərinlik yaşanır. Hətta bəzi müşahidəçilərə görə, bu qalmaqaldan sonra rəsmi Bakı yenidən Qərbə sarı baxmağa başlayıb. Hər necə olmasa, "İsgəndər" kompleksləri ətrafında hay-küyün Dağlıq Qarabağ məsələsi ətrafında artıq yeni bir situasiya yaratdığı faktdır.

O da bəlli faktdır ki, bu komplekslər Ermənistan ərazisində hələ 2013-cü ildən yerləşdirilib və yəqin ki, Azərbaycan tərəfinin də bundan xəbəri olub. Raket kompleksləri yalnız bu il sentyabrın 24-də İrəvanda nümayiş etdirilib və rəsmi İrəvan da bundan ən əvvəl Bakıya "güc nümayişi", daxili təbliğat, bir də Qarabağ danışıqlarında vaxt uzatmaq üçün yararlanmağa çalışıb. Nəticə etibarilə onsuz da ağır gedən sülh prosesi indi tam olaraq dalana dirənib.

***

Belə vəziyyət isə, analitiklərə görə, əslində Ermənistanla yanaşı Rusiyanın da cari maraqlarına cavab verir. Çünki aydın olur ki, Moskva aprel döyüşlərindən sonra da problemin həlli yönündə kardinal addımlar atmağa hazır deyil.

**Lakin rusiyalı tanınmış analitik və tarixçi-alim, Dağlıq Qarabağ məsələsində həmişə obyektiv mövqeyi ilə seçilən Oleq Kuznetsov hesab eləmir ki, "İsgəndər" qalmaqalından sonra Azərbaycan üzünü Qərbə tutmağa başlayıb.** "Məndə belə bir hissiyyat yoxdur. Azərbaycanın xarici siyasəti həmişə çoxvektorlu, çoxqütblü olub və son hadisələr fonunda da prinsipial olaraq heç nə dəyişməyib. Əgər bu məsələyə tam sinik şəkildə yanaşsaq belə, Qərb Azərbaycana "İsgəndər"lərlə bağlı heç bir kömək edə bilməz, çünki Rusiyanın bu silahına qarşı onun özündə də əks təsir vasitəsi yoxdur. Buradan da sual doğur ki, kömək edə bilməyənə kömək üçün müraciət etməyə dəyərmi? Bakı da belə şeyləri yaxşı başa düşür, Qərbə bel bağlamır və Moskva ilə siyasi, diplomatik və hərbi xətlər üzrə məsləhətləşmələr aparır. Mən bu gün Rusiya-Azərbaycan münasibətlərində hansısa pisləşmə baş verdiyinin əlamətlərini görmürəm. O sırada oktyabrın 7-də Azərbaycan prezidenti yanında Strateji Tədqiqatlar Mərkəzinin 25 illiyinə həsr olunmuş və iştirakçıların sayı etibarilə kifayət qədər sanballı Rusiya-Azərbaycan konfransı keçiriləcək. Arada soyuqluq yaşansaydı, ilk növbədə belə tədbirlər ləğv edilərdi", - deyə analitik rusdilli Vesti.az saytına müsahibəsində bildirib.

**Ermənistandakı "İsgəndər" məsələsinə toxunan ekspert daha sonra deyib:** "Fikrimcə, bununla bağlı Bakının Moskvaya qarşı hər hansı de-marşı olmayacaq. Bu - Azərbaycanın marağında deyil. Ermənistan ordusunda "İsgəndər"in mövcudluğuna gəlincə, bu komplekslər regionda hərbi-siyasi situasiyanı əsla dəyişmir, hərbi-texniki qüvvələr balansına ciddi təsir etmir və Ermənistan silahlı qüvvələrinə hansısa strateji üstünlük qazandırmır. "İsgəndər"lə bağlı ən qorxulusu - bu raketlərin 2 hektarlıq sahədə hərbi obyekti məhv edə bilməsidir. Azərbaycanın hərbi infrastrukturunda isə aerodromlar istisna olmaqla, bu raketlər üçün layiqli hədəf yoxdur. Ən dəhşətli ziyan yalnız mülki obyektlərə vurula bilər - misal üçün, Gəncənin yaşayış kvartallarına. Ancaq belə zərbə bəşəriyyətə qarşı cinayət sayılardı. O halda Bakının Ermənistana qarşı total müharibəyə başlayıb, onu hətta dövlət olaraq Yer üzündən silməsi üçün əl-qolu açılardı", - deyə analitik işğalçı ölkəyə xəbərdarlıq edib.

**Bu mənada o, Ermənistandakı "İsgəndər"ləri Sərkisyan rejiminin əlində "təhlükəli oyuncaq" sayır:** "Bu, bağça uşağının cibindəki kibritə bənzəyir və həmin kibrit daha çox onun öz evi üçün təhlükəlidir, nəinki qonşular üçün. "İsgəndər"lərin iştirakı ilə konflikt erməni ordusunu zərbələrə daha həssas edəcək. Üstəlik, bu raket komplekslərini qorumaq lazım olacaq ki, ona da erməni ordusunun əlavə qüvvə və vasitələri cəlb olunmalıdır... "İsgəndər" kompleksi sırf Ermənistanda ictimai rəyi sakitləşdirmək, aprel məğlubiyyətindən sonra orada baş qaldırmış anti-Rusiya ovqatını bir qədər söndürmək məqsədi güdür. Rusiya ermənilərə böyük bir zınqırovlu oyuncaq bağışlayıb. Qoy, onlar onunla oynasınlar".

***

**Əlavə edək ki, İrəvanda "İsgəndər"lərin nümayişindən dərhal sonra Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə Müdafiə Nazirliyində operativ müşavirə keçirilib.** Müşavirədə Ermənistandakı bütün hərbi obyektlərin nəzarətə və hədəfə götürülməsi barədə konkret qərarlar qəbul edilib, müvafiq kəşfiyyat və hərbi strukturlara tapşırıqlar verilib. Təbii ki, söhbət həm də "İsgəndər" raket komplekslərinin yerləşdiyi obyektdən gedir.

❑ **Analitik xidmət**

**Gürcüstan tarixi dəyişiklik astanasındadır. Parlamentli respublikada oktyabrın 8-də parlament seçkiləri keçiriləcək. Bütün dünyanın diqqəti qonşu ölkəyə yönəlib. 2004-cü il inqilabından başlayaraq, Gürcüstanda iqtidarların müəyyən olunmasında böyük söz sahibləri olan ABŞ və Rusiya yenə də bu ölkədə maraqlarına uyğun gələn tərəfin qalib gəlməsi üçün üz-üzə dayanıblar.**

# Gürcüstan üçün kritik iki gün-dünyanın diqqəti bu ölkədə

## Şahin Cəfərli: "Təkrar seçki keçiriləcək dairələrin sayı kifayət qədər çox olacaq"

Şimal qonşumuz hazırda iqtidarda olan "Gürcü Arzusu" siyasi blokunun qalib gəlməsini, Qərb isə 4 il öncə hakimiyyətdən gedən Mixail Saakaşvilinin partiyası kimi tanınan Vahid Milli Hərəkat Partiyasının qalibiyyətini istəyir. Gürcüstanın gələcək siyasəti ilə bağlı hər iki ölkə üçün seçkilərin nəticələri böyük önəm daşıyır.

Ekspertlər Saakaşvilinin qalibiyyət olacağı təqdirdə ölkəyə qayıdışının təkcə Gürcüstan üçün deyil, region baxımından müsbət yöndə ciddi təsirlərinin olacağını proqnozlaşdırırlar. Azərbaycana da böyük təsir olacağı istisna edilmir. Gürcüstanın sürətlə NATO ölkəsinə çevriləcəyi deyilir.



Nəticələrlə bağlı proqnozların əksəriyyəti müxalifətin lehinədir. Xüsusilə, oktyabrın 5-də Tiflisdə Saakaşvilinin partiyasının keçirdiyi izdihamlı mitinqdən sonra iqtidarın dəyişəcəyi ilə bağlı fikirlər daha çox səslənir.

Qonşu ölkədəki seçkilərin orada yaşayan soydaşlarımız baxımından da böyük əhəmiyyəti var. Belə ki, ilk dəfə olaraq, Gürcüstan parlamentinə düşmək uğrunda mübarizəyə qoşulan namizədlər arasında azərbaycanlıların sayı 30-a çatıb. Onların əksəriyyəti müxalifətin iddiaçılarıdır. Hakim partiyadan yalnız üç nəfər azərbaycanlının namizədliyi var. Azərbaycanlı namizədlərin bəzisi majoritar, bəzisi də proporsional qaydada seçkiyə qatılıblar. Proporsional qaydada namizədliklərini irəli sürənlər azərbaycanlıların sıx məskunlaşdığı Marneuli, Bolnisi, Dumanisi və Qardabani rayonlarını təmsil edirlər.

Əslən Borçalıdan olan politoloq Şahin Cəfərli seçkilərdən öncə baş verən hadisələrin seçki kampaniyasının üzərinə kölgə saldığını düşünür: "Gürcüstanda seçkiqabağı təbliğat-təşviqat yekunlaşıb, artıq hər kəs səsvermə gününü gözləyir. Kampaniya siyasi partiyaların, əsasən də iki aparıcı siyasi qüvvə - "Gürcü Arzusu" ilə Vahid Milli Hərəkatın sərt rəqabəti və qarşılıqlı ittihamları ilə müşayiət olunsa da, ümumilikdə normal keçdi və hər hansı ciddi qarşıdurma baş vermədən yekunlaşmaq üzrə idi. Lakin təşviqatın son günlərində əvvəlcə Qoridə deputatlığa namizəd, sabiq müdafiə naziri İrakli Okruaşviliyə odlu silahdan atəş açılması, daha sonra isə Tiflisdə Vahid Milli Hərəkatın deputatı və namizədi Givi Tarqamadzeyə qarşı törədilən terror aktı seçki kampaniyasına kölgə saldı. Xoşbəxtlikdən İrakli Okruaşvili və Givi Tarqamadze hər hansı yara almadan qurtuldular. Oktyabrın 5-də Vahid Milli Hərəkatın paytaxtdakı böyük mitinq-yürüşünün insidentsiz başa çatmasını həm bu partiyanın, həm də bütövlükdə ölkədəki seçki kampaniyasının pozitiv yekunu kimi qiymətləndirmək olar".

**Politoloq qonşu ölkədə ikiqütblü siyasi sistemin olduğunu bildirdi:** "Gürcüstanda ikiqütblü siyasi sistem formalaşıb. Qütblərdən biri "Gürcü Arzusu", digəri isə Vahid Milli Hərəkatdır. Mixail Saakaşvilinin qurucusu olduğu Vahid Milli Hərəkatın son aksiyası çox uğurlu alındı və bu partiyanın gücünü göstərdi. Sirr deyil ki, "Gürcü Arzusu" 2012-ci ildə iqtidara gəldikdən sonra Bidzina İvanişvilinin əsas fəaliyyəti Vahid Milli Hərəkatı marginallaşdırmağa və bir rəqib kimi sıradan çıxarmağa yönəlmişdi. Saakaşvili və onun silahdaşları hər cür qanunsuzluqda, korrupsiyada, müxtəlif cinayət əməllərində suçlandılar, sabiq baş nazir Vano Merabişvili və keçmiş Tiflis meri Giqi Uqulava kimi aparıcı fiqurlar həbs olundular. Lakin bu repressiv siyasət Milli Hərəkatın Gürcüstan siyasətindəki mövqelərini itirməsinə səbəb olmadı, partiya öz sosial dayaqlarını qorudu və tədricən siyasi nüfuzunu bərpa edərək hakim partiyanın əsas alternativi kimi qismində öz iddiasını təkrar ortaya qoydu. Təşviqat dövründə Saakaşvilinin xanımı Sandra Rulofsun partiyanın əsas siması qismində önə çıxarılması uğurlu gediş idi. Lakin bütün bunlar hələ Vahid Milli Hərəkatın seçkidən zəfərlə ayrılacağını söyləməyə əsas vermir. Çünki "Gürcü Arzusu" müəyyən reytinq itkisinə rəğmən, gücünü qoruyub saxlayır. "Gürcü Arzusu"nu və dövləti pərdə arxasından idarə edən Bidzina İvanişvilinin seçki kampaniyası ərəfəsində partiyanın liderini - baş naziri dəyişdirərək İrakli Qaribaşvilinin yerinə liderlik keyfiyyətlərinə görə ondan daha üstün olan, ölkədə müsbət imicə malik Georgi Kvirikaşvilini gətirməsi düzgün addım idi və partiyanın reytinqinə pozitiv təsir göstərdi. Ona görə də "Gürcü Arzusu"nun yenidən qələbə qazanması sürpriz olmayacaq".

**Ş.Cəfərli gözlənilən nəticələrə toxundu:** "Gürcüstanda qarışıq seçki sistemi tətbiq olunur. 150 yerdən ibarət parlamentə 77 deputat proporsional, 73 deputat isə majoritar qaydada seçiləcək. Son rəy sorğuları 2 aparıcı siyasi qüvvənin reytinqinin bir-birinə çox yaxın olduğunu göstərib. Çox güman ki, proporsional sistem üzrə hər iki partiya bir-birinə yaxın sayda mandat əldə edəcək. Vahid Milli Hərəkat və ya əksinə, "Gürcü Arzusu" proporsional sistem üzrə seçkilərdə 1-ci ola bilər, amma hökuməti kimin formalaşdıracağı birmandatlı dairələrdəki nəticələrdən asılı olacaq. Postsovet məkanının seçki təcrübəsindən məlumdur ki, birmandatlı dairələrdə adətən əlində inzibati resursları cəmləşdirən iqtidar partiyaları daha şanslı olur. Bu səbəblə "Gürcü Arzusu"nun majoritar sistem üzrə daha çox mandat əldə edəcəyi gözləniləndir. Buna rəğmən, şübhə yoxdur ki, 73 dairədə ciddi mübarizə gedəcək və ehtimal edilir ki, bir çox dairədə namizədlərdən heç biri 50 faizdən artıq səs toplaya bilməyəcəyi üçün təkrar seçki keçiriləcək dairələrin sayı kifayət qədər çox olacaq. Majoritar dairələrdən müxtəlif siyasi partiyaların namizədləri də deputat seçiləcək. Əgər yeni parlamentdə "Gürcü Arzusu" ilə Milli Hərəkat təkbaşına çoxluq yarada bilməsələr, koalisiya axtarışlarında digər siyasi partiyaların azsaylı təmsilçilərinin mövqeyi həlledici ola bilər. Bir sözlə, seçkidən sonra yeni hökumətin formalaşdırılması kifayət qədər problematik ola bilər. Mixail Saakaşvilinin qayıdışı isə o halda mümkündür ki, onun partiyası hakimiyyətdə olsun".

**Müsahibimiz azərbaycanlı namizədlərdən və Gürcüstanın NATO ölkəsinə gedən yoluna bu seçkilərin təsirlərindən də söz açdı:** "Azərbaycanlı namizədlərə gəldikdə isə, həm "Gürcü Arzusu", həm də Vahid Milli Hərəkatın sıralarında iddialı soydaşlarımız var. Bundan əvvəlki seçkilərdə 3 azərbaycanlı namizəd deputat seçilmişdi, bu dəfə onların sayının artacağına ümid edirəm. "Gürcü Arzusu"nda Mahir Dərziyev, Savalan Mirzəyev, Ruslan Hacıyev, Vahid Milli Hərəkatda isə Azər Süleymanov, Əhməd İmamquliyev, Ramin Bayramov, Samirə İsmayılova kimi iddialı namizədlər var. Soydaşlarımızın müxtəlif siyasi partiyalarda təmsil olunması və rəqabət aparmaları normal haldır, bundan narahat olmağa dəyməz. Parlamentdə azərbaycanlı deputatların sayından asılı olmayaraq, Gürcüstan-Azərbaycan münasibətləri hər zaman inkişaf edəcək. Çünki iki ölkəni ortaq maraqlar, mühüm regional və beynəlxalq layihələr birləşdirir. Lakin əlbəttə ki, soydaşlarımızın Gürcüstan parlamentində təmsil olunması istər ikitərəfli əlaqələr, istərsə də Gürcüstandakı azərbaycanlıların hüquqlarının qorunması baxımından çox vacibdir. Seçkidən sonra Gürcüstanın xarici siyasət kursunda dəyişiklik gözlənilmir. Gürcüstan öz strateji seçimini çoxdan edib və avroatlantik inteqrasiyaya üstünlük verib. Hökumət dəyişsə də, dəyişməsə də, bu kurs davam edəcək və Gürcüstanın NATO-ya üzvlüyü sürətlənəcək".

❑ Cavanşir ABBASLI

# Tofiq müəllimin savadı



**Xalid KAZIMLI**

**Əgər dünyanın çarxı tərsinə dönməsəydi və ermənilər işğal edib yandırmasaydı, bizim, iki parametr üzrə yəhudi kibutsasına oxşayan kəndimiz Qaxın İlisu və Cəbrayılın Soltanlı kəndinə çatacaq və onları ötəcəkdi.**

Söhbət təkcə kəndimizin yerləşdiyi əlverişli relyefdən, hələ 60-cı illərdə əl əməyi ilə abadlaşdırılmış (geniş park, zəngin kitabxana, iki məktəb, böyük meyvə bağları içində tikilmiş xəstəxana, buxarxanalı hamam, uşaq bağçası və s.) olmasından getmir, həm də təhsilli adamların çoxluğundan, təhsilə, elmə marağın yüksəkliyindən gedir.

Kəndimizdə elə bir ailə olmazdı ki, orda bir neçə ali təhsilli adam olmasın. Hətta elə ailələr vardı ki, 6 övladdan 6-sı, bəzən 5-i, yaxud 4-ü ali təhsilli idi. Belə ailələr çox idi və bu yazının oxucuları onlardan bir neçəsini şəxsən tanıyır. Məsələn, vəkil Osman Kazımovun qardaşları və bacılarının hamısı ya Tibb Universitetini bitirmişdilər, ya da BDU və o biri universitetləri. Köşə yazarımız Zamin Hacının qardaş-bacılarının hamısı ali təhsillidir, yalnız ən kiçik qardaşının abituriyentliyi pis dövrə düşdüyü üçün ali məktəbə girmədi. Keçmiş əməkdaşımız Rahib Kazımlının 8 nəfərdən ibarət ailəsinin 6 ali və 2 orta ixtisas təhsilli üzvü vardı.

Bu xüsusda rekord isə bu günlərdə deputat Fazil Mustafa tərəfindən "savadsız" adlandırılan tarixçi-alim, elmlər doktoru Tofiq Nəcəflinin ailəsinə məxsusdur - 10 övladdan 10-u da təhsillidir (7-si ali, 3-ü orta ixtisaslı).

Bu yazıda Tofiq müəllimdən bəhs edəcəm. Onu 45 ildən artıqdır ki, tanıyıram.

Tofiq müəllimin atasıyla mənim atam 40 il Qarabağda çəpər qonşusu olublar, özü ilə də özüm Bakıda, Şərifzadə küçəsində.

O, məndən 3 sinif yuxarıda oxuyurdu. Sizə 40 il öncədən danışıram. Onların sinfindəki şagirdlərin çoxu yaxşı oxuyurdu. Tofiqin, Bərzuyənin, Afətin, Cavanşirin və başqalarının tənəffüslərdə məktəbin həyətində o baş-bu başa gedə-gedə kitab oxuduqları (belə vərdiş eləmişdilər) bu gün də gözümün qabağındadır. Onların əlindən kitab düşməzdi. Sonradan çoxu ali məktəblərə daxil oldu - bəziləri birinci il müsabiqədən keçə bilməsə də, məqsədlərinə sonrakı illərdə çatdılar.

Bu yaxınlarda atam danışırdı ki, bir dəfə Tofiqin atası Hümbət kişi öz dostları ilə söhbət edərkən onlardan biri kiçik oğluna aldığı ikinci avtomobildən danışıb və deyib ki, ay Hümbət, bunun birini də sən al. Hümbət kişi dostu Səmiran kişiyə belə cavab verib: "Sənin iki maşının var, sağlığına qismət, amma mən bu saat dörd tələbə oxuduram".

O tələbələrdən biri də Tofiq idi. O, universitetdə də əla qiymətlərlə oxuyurdu, fəal idi. 30 il öncə (1986-cı ilin iyun ayının axırlarında) çayxanada oturub söhbət elədiyimiz vaxt Zori Balayanın "Ocaq" adlı təxribatçı kitab yazdığını, Azərbaycana qarşı irəli sürülən ərazi iddiasını, bunun gələcəkdə Qarabağ münaqişəsinə səbəb olacağını məhz Tofiq müəllimdən eşitmişəm. O zaman Qarabağ konfliktinin başlanmasına hələ 1,5-2 il qalırdı. Amma Tofiq və onun tələbə yoldaşları ölkəmizi nə gözlədiyini bilir, bu barədə ictimai yerlərdə danışırdılar.

O, gəncliyini elmə xərclədi, aspirant oldu, namizədlik dissertasiyası müdafiə etdi, bu səbəbdən gec ailə qurdu, amma istədiyinə çatdı, tarixçi alim oldu. Bu günlərdə Tofiq müəllim doktorluq dissertasiyası da müdafiə edib, orta əsrlər araşdırmaçısıdır və bu sahədə ölkəmizin ən savadlı, bilikli üç alimindən biridir.

Bu gün gündəmdə olan Şah İsmayıl - Sultan Səlim polemikası barədə fikirlərini Tofiq müəllim mənə 20 il öncə, aspirantlar yataqxanasında qaldığı zaman danışıb. O, hələ o zaman deyirdi ki, Osmanlı məxəzlərini oxuyanda Şah İsmayıla qarşı o qədər kin-küdurət, həqarət görürsən ki, mat qalırsan.

Bir neçə gün öncə Tofiq müəllim redaksiyamıza gündəmdə olan mövzuya dair böyük həcmli bir yazı göndərmişdi. Akademik təhkiyə ilə yazılan yazıda bir qrammatik səhv yox idi. Amma ertəsi gün deputat Fazil Mustafa onu, ölkənin ən bilikli orta əsrlər tarixi araşdırmaçısını "savadsız alim" adlandırdı.

Bunu haqsızlıq hesab etdiyim üçün Tofiq müəllim haqqında ətraflı yazdım ki, Fazil bəy də, oxucularımız da bilsinlər ki, Tofiq Nəcəfli çox savadlı bir alimdir.

**Ümumiyyətlə, gərək elmi polemikalarda heç kəs öz rəqibini savadsızlıqda ittiham etməsin, aşağılamasın, təhqir etməsin. Ziyalılarımız başqalarına nümunə olmalıdırlar.**